# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
# ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi
çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat
proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş
layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsinin tarixi-etnoqrafik tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Paşayeva Məhəbbət Tofiq qızı**
Qrantın məbləği: **70 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/54/5-M-30**
Müqavilənin imzalanma tarixi: **29 mart 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2017-ci il – 01 aprel 2019-cu il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır
Diqqət! Uyğun məlumat olmadığı təqdirdə müvafiq bölmə boş buraxılır

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(burada doldurmalı)*<br>1. Azərbaycanlıların mənəvi irsini təşkil edən alban mədəniyyətinin zəngin və qədim ənənələrini, alban xristian ənənələrini qoruyub saxlamış son albanlar olaraq udilərin dini inanclarının tarixi köklərinin müəyyənləşdirilməsi üçün onların dini və etnik durumu mənbələr, XIX əsrə aid demoqrafik və kameral sənədlərlə yanaşı tarixi-etnoqrafik materialların qarşılaşdırılması yolu ilə təhlil edilmiş, Azərbaycan etno-mədəni irsində udi |

etnosunun yeri və rolu müəyyən edilmiş, udilərin bütövlükdə azərbaycanlılarla tarixi-mənəvi bağları, etnoqenetik əlaqələri, ortaq ənənələri üzə çıxarılmışdır.

2. Mənbələr və arxiv materialları ilə yanaşı etnoqrafik materiallar əsasında da XIX əsrdən etibarən udilərin dini və etnik durumu ilə baglı problemlər, həmçinin XIX əsrin birinci yarısında yaranmış belə vəziyyətdə udilərin assimilyasiyaya məruz qalması, lakin erməni-qriqorian kilsəsinə tabe olmaq istəməyib, etnik identikliyini qoruyub saxlayaraq Azərbaycan tarixinə bağlılığı kimi məsələlər mənbələr və arxiv materialları ilə yanaşı etnoqrafik materiallar əsasında da qarşılaşdırılaraq təhlil edilmişdir. Udilər iki əsr boyu alban xristian ibadətlərini özünəməxsus şəkildə dini və məişət ənənələrində davam etdirməklə alban kilsəsinə, etiqadlarına sadiq qalmağa çalışmışlar və bunula da öz mədəniyyətini, dilini, dinini, etnik kimliyini və etnik adını günümüzədək qoruyub saxlaya bilmişlər. Xalqın XIX əsrdən etibarən öz etnik identliyini qoruyub saxlaması və alban xristian ənənələrini davam etdirmək üçün rus pravoslav və erməni qriqoryan kilsəsinə tabe olmamamq üçün apardığı mabarizə ilə baglı Nic kəndinin sakinləri, xüsusilə də kəndin vaxtilə dini ibadətlərinin gizli şəkildə keçirildiyi ev müəyyən edilmiş, kəndin keçmiş keşişinin qohumları olmuş kənd sakinlərindən müsahibələr alınmış, dəyərli elmi etnoqrafik materiallar əldə edilmişdir. Müəyyən edilmişdir ki, udilərin bir qismi , xüsusilə də Nİc udiləri nə qriqoryan, nə də provoslav kilsəsinə getməyi qəbul etməyərək öz xristian ibadətlərini evlərində davam etdirməklə alban xristian ənənələrini qoruyub saxlmağa müvəffəq olmuşlar.

3. Udilərin etnik tarixi, mənşəyi, etnoqenetik əlaqələri, adət-ənənələri, mərasim ayinləri, xalq inancları, folklorunun və digər etnik ənənələrinin araşdırılması üçün udilərin hazıda kompakt yaşadığı ərazilərlə yanaşı tarixən məskun olduğu ərazilərə də elmi etnoqrafik ekspedisiyaların təşkil edilmişdir. Nəticədə toplanmış etnoqrafik çöl mateialları və XIX əsrə aid mənbələrin qarşılaşdırılması əsasında udi etnosu və udi kəndləri, buradakı qədim

alban məbədlərinin izləri, eyni zamanda , bir sıra qədim udi ənənələri, xalq inanclari, pir və ziyarətgahlari qeydə alınmış, yerli əhalinin məişətində qorunub qalmış, unudulmaqda olan folklor ənənələri, rəvayət və əfsanələri toplanması işi davam etdirilmişdir. Etnoqrafik çöl materialları əsasında həmçinin udilərin patronomiya, mərasim ənənələri və ayinləri, təsərrüfat və məişət ənənələri təhlil edilmişdir.

4. Udilərin etno mədəni və dini mirasının qarşılıqlı-müqayisəli araşdırılması - ümumazərbaycan mənəvi mədəniyyətinin qədim və spesifik elementlərinin üzə çıxarılması, xalqların etnik ənənə və spesifik xüsusiyyətlərinin öyrənilməsi ilə onların etnogenetik etnomədəni əlaqələri, bir ərazidə yaşayan xalqların multikultural tatrixi köklərinin aşkara çıxarılması, uzunmüddətli birgə yaşayış şəraitində zəngin müştərək ənənələrə və ortaq mənəvi dəyərlərə sahib olmuş Azərbaycanın alban mənşəli etnoslarının bütövlükdə Azərbaycan milli-mənəvi dəyərlərinin, həmçinin əsrlər boyu formalaşan qarşılıqlı mədəni əlaqələrinin öyrənilməsi üçün Azərbaycanın alban tayfalarının birbaşa varislərindən olan xınalıqların, qrızların, həmçinin hapıtların, ingiloyların da adət-ənənələrinin, folklor ənənələrinin və etnogenetik əlaqələrin öyrənilməsi istiqamətində də elmi işlər aparılmışıdr.

5. Etnik tərkibinə görə rəngarəng olan Qafqaz Albaniyasında Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış uti, qarqar, hun udi, kaspi, qel, hər, qat kimi bir çox alban tayfalarının varislərinin - hazırda Azərbaycanda yaşayan udilər, ingiloylar, o cümlədən xınalıqlar, qrızlar,hapıtlar, buduqlar kimi kök etibarilə Azərbaycanın alban mənşəli etnoslarının tarixi etnoqrafiyası və etnik ənənələrinin udi etnosu ilə qarşııqlı müqayisəli araşdırılması nəticəsində Azərbaycanın alban mənşəli etnoslarının umumalban ənənələri üzə çıxarılmışdır.

6. Layihə çərçivəsində Azərbaycanda multikultural mühitin keçmişdən günümüzədək tarixi ənənələrinin və dini mədəni irsi Azərbaycanın alban köklü tayfalarından biri olan udilərin timsalında araşdırılmaqla yanaşı Azərbaycanın qədim dövləti olan Qafqaz Albaniyasında məskun olan, Azərbaycanın, həmçinin Qafqazın antik və orta əsr mədəniyyətinin əsas yaradıcılarından sayılan, azərbaycanlıların etnik tarixinin mühüm bir mərhələsini təşkil edən alban tayfalarının bütün Azərbaycan bölgələri üzrə izlərinin araşdırılması istiqamətində bir sıra işlər görülmüşdür. Multikultural ənənələrinin tarixi köklərinin üzə çıxarılması, udilərin və onlarla yanaşı bu bögələrdə məskun olmuş alban köklü etnosların tarixi-etnoqrafik tədqiqi, yayılma arealının, alban ənənələrinin müəyyən ediilməsi üçün, Şəki, Zaqatala, Qax, Qəbələ, Oğuz, İsmayıllı, Quba kimi kimi bölgələrdə qədim alban tayfalarının genetik izləri, etnogenetik və etnomədəni əlaqələri müəyyən edilmişdir

7. Azərbaycanlıların mənəvi irsini təşkil edən alban mədəniyyətinin zəngin və qədim ənənələrini, alban xristian ənənələrini qoruyub saxlamış son albanlar olaraq udilərin dini inanclarının tarixi köklərinin müəyyənləşdirilməsi üçün dini və etnik durumunun təhlil edilmiş, Azərbaycan mədəni irsində alban mənşəli udi etnosunun yeri müəyyən edilmiş, udilərin bütövlükdə azərbaycanlılarla tarixi-mənəvi bağları, etnoqenetik əlaqələri üzə çıxarılmış, Azərbaycanın alban etnoslarının vahid etnoqenetik kökləri, onların ortaq umumazərbaycan ənənələri üzə çıxarılmış, həmçinin müasir etnoslararası münasibətlər, etnik qrupların etnomədəni inkişafı, etnoslararası münasibətlərin perspektivləri kimi istiqamətlər müəyyən edilmişdir.

8. Xalqların etnik ənənə və spesifik xüsusiyyətlərinin öyrənilməsi ilə onların etnogenetik etnomədəni əlaqələri, bir ərazidə yaşayan xalqların multikultural tatrixi köklərinin aşkara çıxarılmasına kömək edir. Azərbaycanda yaşayan etnoslar uzunmüddətli birgə yaşayış şəraitində zəngin müştərək ənənələrə və ortaq mənəvi dəyərlərə sahib olmuşlar. Bu

baxımdan udilərin etno mədəni və dini mirasının araşdırılması bütövlükdə Azərbaycan milli-mənəvi dəyərlərinin, həmçinin əsrlər boyu formalaşan qarşılıqlı mədəni əlaqələrinin öyrənilməsi üçün tədqiqatın qarşılıqlı-müqayisəli araşdırma istiqamətində aparılması eyni zamanda ümumazərbaycan mənəvi mədəniyyətinin qədim və spesifik elementlərinin üzə çıxarılması üçün Azərbaycanın alban tayfalarının birbaşa varislərindən olan xınalıqların, qrızların, həmçinin hapıtların, ingiloyların da adət-ənənələrinin, folklor ənənələrinin və etnogenetik əlaqələrin müəyyənləşdirilməsi istiqamətində də araşdırmalar aparılmışıdr.

9. Azərbaycanda multikultural mühitin keçmişdən günümüzədək tarixi ənənələrinin və dini mədəni irsinin Azərbaycanın alban köklü tayfalarından biri olan udilərin timsalında araşdırılması ilə yanaşı bütün Azərbaycan bölgələri üzrə alban tayfalarının izlərinin araşdırılması istiqamətində bir sıra işlər görülmüşdür. Xüsusilə də Şəki, Zaqatala, Qax, Qəbələ, Oğuz, İsmayıllı, Quba kimi kimi bölgələrdə qədim alban tayfalarının genetik izləri, etnogenetik və etnomədəni əlaqələri müəyyən edilmişdir. Hazırda Azərbaycanda kompakt halda Qəbələ rayonunun Nic kəndində və Oğuz rayonunda yaşayan udilərin tarixi-etnoqrafik tədqiqi və yayılma arealının müəyyən ediilməsi və mənəvi mədəniyyətimizin multikultural ənənələrinin tarixi köklərinin üzə çıxarılması üçün Qəbələ -Oguz-İsmayıllı-Şəki, Quba bölgələrinə elmi ekspedisiyalar təşkil edilmişdir. Etnoqarfik səfərlər zamanı qədim alban tayfalarının genetik izlərinin araşdırlması və udi etnosu ilə etnogenetik bagların üzə çıxarılması məqsədilə alban köklü etnosların məskun olduğu Şəki və İsmayıllı, Quba rayonlarının bir sıra kəndlərinə səfər edilmiş, xüsusilə qədim alban tayfalarından olan xınalıqların, qrızların, hapıtların məskun olduğu Xinalıq, Qrız, Hapıt, Molla İshaqlı, Hacıhətəmli Qalacıq, İstisu kimi bir sıra kəndlərdə çöl tetnoqrafik ədqiqatları aparılmışdır.

10. Layihənin icrası müddətində udilərin tarixən məskun olduğu kəndlərə etnoqrafik

ekspedisiyalar təşkil etməklə udi etnosunun etnik tarixi, mənşəyi, etnoqenetik əlaqələri, adət-ənənələri, mərasim ayinləri, xalq inancları etnoqrafik çöl mateialları əsasında araşdırılması, həmçinin XIX əsrdə udi etnosu və udi kəndləri, qədim alban-udi ənənələrinin qalıqlarının müəyyən edilməsi barədə məlumatlar toplanması işi davam etdirilmiş, etnoqrafik çöl materialları əsasında udilərin etnik ənənələri təhlil edilərək, patronomiya, mərasim ənənələri və ayinləri, həmçinin təsərrüfat və məişət ənənələri, milli mətbəxi öyrənilərək bir sıra qədim alban ənənələri müəyyən edilmişdir.

11. Müasir dövrdə Azərbaycanda dini fəaliyyət sahəsində aparılan uğurlu siyasət nəticəsində udi etnosunun itirilmiş hüquqlarını tam bərpa edilməsi,onlara məxsus tarixi abidələrin bir qismi yenidən bərpa ediləsin proqramı çərçivəsində “Udi ocagı” adlı açıq səma altında yaradılmış etnoqrafik muzeyin təşkili işində elmi məsləhətçi qismində yaxından kömək göstərilmişdir.Udilərin tarixinin və etnoqrafiyasının qorunması və gələcək nəsillərə ötürülməsilə məqsədilə Nic kəndində udi etnoqrfaiyasının və tarixi ənənələrinin, məişətinin əks olunduğu tarixi-etnoqrafik qorugun yaradılması işlərində kənd sakinlərinə yaxından kömək göstərilmiş, elmi məsləhətlər verilmişdir. Qədim udi ənənələrinin qorunması üçün Nic kəndinin qədim patronomik nəsillərindən biri olan Kankalovların evinin “Udi ocagı” adlandırılan tarixi-etnoqrfik muzeyə cevrilməsində, kəndin artıq unudulmaqda olan keçmiş ənənələrini, adət-ənənələrini, dini inanclarını, təsərrüfat və məişətini əks etdirən bir sıra eksponatların hazırlanması işində yaxından iştirak edilmişdir.

12. Layihənin elmi istiqaməti üzrə Azərbaycanın keçmişdən bu günə uzanan multikultural ənənələrinin dünyada tanıdılması, Azərbaycan multikulturalizminin dünyada təbliği ilə bağlı, həmçinin udi-alban xristian ənənələri və onun tarixi kökləri, udi etnosunun Azərbaycanın müasir etnokultural mühitində yeri, etnoslararası qarşılıqlı münasibətləri və ortaq ənənələrinin mövcudluğunun qorunub saxlanması və tanıdılması istiqamətində işlər görülmüşdur. Xüsusilə

udilərin kompakt yaşadığı Nic qəsəbəsinin dünyanın ən nümunəvi tolerantlıq modeli kimi tanıdılması sahəsində mühüm addımlar atılmışdır. Udilərin kompakt yaşadığı Nic qəsəbəsinin Azərbaycan dövləti tərəfindən dünyanın ən mütərəqqi tolerantlıq modelinə çevrilməsi prosesləri, Müstəqil Azərbaycanda tolerantlığın nümunəsi kimi Udi-alban xristian icmasının yaradılması və fəaıiyyəti istər ölkə içtimaiyyəti, istərsə də dünya iştimaiyyəti və kütləvi inforasiya vasitələrində geniş işıqlandırılmışdır. Türkiyə, Rusiya, Belorusiya, ABŞ, Norveç kimi xarici ölkələrdə udi etnosu, onun qədim alban kökləri, alban xristian ənənələri, ilk xristian missionerlərinin Qafqaz Albaniyasında fəaliyyəti, alban xristian ənənələrini qoruyub saxlamış son albanlar olaraq udilərin dini və etnik durumu Qafqaz Albaniyası və Alban Apostol kilsəsinin tarixi, Azərbaycan tarixinin xristianlıq səhifəsi, Udilərin kompakt yaşadığı Nic qəsəbəsinin Azərbaycan dövləti tərəfindən dünyanın ən mütərəqqi tolerantlıq modelinə çevrilməsi prosesləri, Müstəqil Azərbaycanda tolerantlığın nümunəsi kimi Udi-alban xristian icmasının fəaliyyəti kimi bir sıra layihə mövzusunun əsas aspektlərinin işiqlandırılması istiqamətində işlər görülmüşdür.

13. Layihənin icrası müddətində dəfələrlə kütləvi informasiya vasitələrində, həmçinin BMM , Bilik fondu kimi müxtəlif ictimai təşkilatlarda layihə mövzusu ilə baglı təşkil edilmiş dəyirmi masalarda, konfranslarda cıxışlar edilmiş, layihə çərçivəsində görülən işlər, alınan nəticələr, yeni elmi nailiyyətlər barədə məlumatların yer aldığı çıxışlar edilmişdir.

14. Layihə çərçivəsində Udilərin kompakt yaşadığı Nic qəsəbəsinin Azərbaycan dövləti tərəfindən dünyanın ən mütərəqqi tolerantlıq modelinə çevrilməsi prosesləri, Müstəqil Azərbaycanda tolerantlığın nümunəsi kimi Udi-alban xristian icmasının yaradılması və fəaıiyyəti istər ölkə içtimaiyyəti, istərsə də dünya iştimaiyyəti və kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır. Türkiyə, Rusiya, Belorusiya, ABŞ, Norveç kimi xarici ölkələrdə udi etnosu, onun qədim alban kökləri, alban xristian ənənələri, ilk xristian

missionerlərinin Qafqaz Albaniyasında fəaliyyəti, alban xristian ənənələrini qoruyub saxlamış son albanlar olaraq udilərin dini və etnik durumu Qafqaz Albaniyası və Alban Apostol kilsəsinin tarixi, Azərbaycan tarixinin xristianlıq səhifəsi, Udilərin kompakt yaşadığı Nic qəsəbəsinin Azərbaycan dövləti tərəfindən dünyanın ən mütərəqqi tolerantlıq modelinə çevrilməsi prosesləri, Müstəqil Azərbaycanda tolerantlığın nümunəsi kimi Udi-alban xristian icmasının fəaliyyəti kimi bir sıra layihə mövzusunun əsas aspektlərinin işiqlandırılması istiqamətində işlər görülmüşdür.

15. Layihə çərçivəsində təşkil edilən və Gürcüstan, Türkiyə, Ukrayna kimi ölkələrə edilən elmi ezamiyyətlər nəticəsində Alban Apostol kilsəsinin tarixi keçmişi, Qafqaz Albaniyasında xristianlığın yayılması ərəfəsində xristianlığın təbliği edən Apostolların Qafqaz Albaniyasındakı missionerlik fəaliyyəti ilə bagli bir sıra yeni elmi materiallar üzə çıxarılmış, xarici ölkələrin kitabxana və arxivlərində mənbələr və arxiv materiallarının toplanması və çöl etnoqrafik ekspedisiyalarının nəticələri ilə qarşılıqlı müqayisəli araşdırılması nəticəsində Qafqaz Albaniyasında xristianlığı təbliğ edən ilk missionerlərin fəaliyyəti, onların Yerusəlimdən Albaniyaya uzanan yol xəritəsi, hərəkət marşrutu müəyyən edilmişdir.

16. Elmi ədəbiyyatda ilk dəfə olaraq Qafqaz Albaniyası ərazisində ciddi təqiblərə məruz qalan İlk xristian missionerləri, apostolların Qafqaz Albaniyasındakı fəaliyyəti, xüsusilə də Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin və onun tələbələrinin öldürüldüyü yer toponimik və arxiv materiallarının, həmçinin mənbələrin və etnoqrafik çöl materiallarının qarşılaşdırılması yolu ilə aparılan tədqiqatlar əsasında üzə çıxarılmışdır. Araşdırmalar nəticəsində Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan onun öldürüldüyü ərazi - mənbələrdə adı çəkilən Zərquni, xüsusilə də Qomenk (Homenk) toponiminin

lokalizasiyası, etnoqrafik çöl ekpedisiyaları, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə müəyyən edilmişdir.

17. Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin alban xristian ənənələrini günümüzədək yaşadan udilər arasında müqəddəsləşdirilməsinin səbəbləri və tarixi kökləri müəyyən edilmişdir. Qəbələ-bölgəsinin Nic, Bum, Həzrə, Dizaqlı kimi bir sıra kəndlərində yerli əhali arasında Yeliseylə baglı əfsanələr toplanmış, inanc yerləri qeydə alınmışdır. Şəki rayonunun Kiş kəndində, Oguzda, Qəbələnin Nic kəndində, eyni zamanda Dizaqlı kəndi yaxınlığında Komrad dagında mövcud olmuş V əsrə aid alban kilsəsinin udilər arasında Yeliseylə baglı olması və bu alban kilsələrinin müqəddəs Yeliseyin şərəfinə adlandırılmasıinn səbəbləri və tarixi kökləri müəyyənləşdirilmişdir. Hazırda bu qədim alban məbədlərinin hər biri, o cümlədən Yeliseyin əsasını qoydugu Kiş məbədinin, həmçinin Kürmük, Gömrat, Yelisu piri, Şeşpər baba kimi qədim alban mənşəli inanc yerlərini inancından asılı olmayaraq bütün azərbaycanlıların pir kimi ziyarət etməsi xalqın öz alban köklərini unutmadığı üzə çıxarılmışdır. Aşkar edilmiş elmi yeniliklər baglı Beynəlxalq multikulturalizm Mərkəzində təşkil edilmiş “Qafqazda xristian kilsəsləri “ adlı dəyirmi masada çıxış edilmişdir. Eyni zamanda müqqəddəs Yeliseyin və onun tələbələrinin Qafqazda missionerlik fəaliyyəti və aqibəti, önların öldürüldüyü ərazilər və bu ərazilərin hazırda məhz udilərin ziyarət yerləri olması ilə baglı materiallar əsasında yazılmış məqalənin ingilis dilinə tərcümə edilərək xarici mətbuatda çap olunması istiqamətində işlər görülmüşdür.

### Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar

Layihənin yerinə yetirilməsi zamanı tarixi müqayisə, tarixi-etnoqrafik yanaşma, tarixi-etnik təsvirlər, qarşılıqlı-müqayisə, tarixi dövrləşmə, təsnifatlandırma, analitik metod kimi müxtəlif üsul və yanaşmalardan istifadə olunmuşdur. Tədqiq olunan mənbələr sırasına etnik mədəniyyətin real mövcud obyektləri, o cümlədən yaşlı nəslin yaddaşı əsasında bərpa edilən məlumatlar, yazılı mənbələr, həmçinin arxeoloji materiallar və s., daxildir. Bu mənbələrin qarşılıqlı müqyisəli təhlili etnosun tarixi inkişaf mərhələlərini müəyyən etməyə imkan vermişdir. Problemin sistemli təhlili üçün yazılı mənbələr, mövcud tarixi-etnoqrafik, arxeoloji ədəbiyyat və layihənin cari icrası mərhələsində həyata keçirilən elmi ekspedisiyalar zamanı əldə olunan etnoqrafik materiallar tarixi müqayisə, tarixi-etnoqrafik yanaşma, tarixi-etnik təsvirlər, qarşılıqlı-müqayisə, tarixi dövrləşmə, təsnifatlandırma, analitik metodlarla təhlil edilmişdir.

1. Tarixi –müqayisə metodundan istifadə edilməklə mədəniyyətlərarası (kross-mədəni) qarşılpıqlı müqayisələr nəticəsində etnosların keçmişdən bu günədək bu və ya digər özünəməxsus xüsusiyyətləri, ortaq ənənələri müəyyən edilmişdir. Tarixi –müqayisə metodunun tətbiqi ilə eyni zamanda etnik ənənələrin mənşəyi və formalaması da müəyyən edilmişdir. Etnik mədəniyyətin real mövcud obyektləri, o cümlədən yaşlı nəslin yaddaşı əsasında bərpa edilən məlumatlar, yazılı mənbələr, həmçinin arxeoloji materiallar kimi mənbələrin qarşılıqlı müqayisəli təhlili etnosun tarixi inkişaf mərhələlərini müəyyən etməyə imkan vermişdir.
2. Müqayisəli-tipoloji metoddan istifadə edilərək etnosun etnik ənənələrinin ayrı ayrı komponentlərinin müqayisəli-tipoloji araşdırması ilə yanaşı, digər qohum etnosların tipoloji uygun komponentlərinin də təsnifatı verilmişdir.
3. Müasir etnoqrafaiyada tətbiq olunan tipoloji metoddan istifadə etməklə etnik hadisələrin empirik müxtəlifliyində ümumi və spesifikliyin analizi aparılmışdır.
4. Bütövlükdə etnosun və ya etnik hadisələrin struktur komponentlərinin üzə çıxarılması üçün

komponentlərin təhlili metodundan da istifadə edilmişdir. Bu metoddan xüsusilə qohumluq terminlərinin öyrənilməsində geniş istifadə edilmişdir.

5. Çöl etnoqarfik mənbələri əsasında etnik ənənələrin analitik təsviri və müqayisəli araşıdrılması nəticəsində etnogenetika təhlil edilmişdir.

6. Layihənin yerinə yetirilməsi zamanı çol tədqiqatlarının aparılmasında yerli əhali arasında ənənəvi məişətin ayrı ayrı komponentləri haqda ilkin etnoqrafik məlumatların toplanması, bu metodla məlumat toplamaq üçün xüsusi seçilmiş informatordan sorgu yolu ilə məlumat alınması, eyni zamanda müşahidə yolu ilə mədəniyyət və məişət ənənələrinin öyrənilməsi və qeydə alınması üsulları kimi bir sıra etnoqrafik tədqiqat metodlarından da istifadə edilmişdir;

7. Etnoqrafik materialın üzə çıxarılması üçün tədqiqat obyekti olan udilərin yaşadğı mühitdə və ətraf ərazilərdə çol tədqiqatları aparmaqla etnosun real məişət mədəniyyətini birbaşa müşahidə altına almaq üsulundan istadə etməklə etnoqrafik faktların qeydə alınması və təhlil edilməsi həyata keçirilməsilə etnoqrafik mənbələr üzə çıxarılmışıdr. Bu metod özündə mövcud etnoqrfik faktın qeydə alınması və tətbiqinə yonəldilmiş kompleks metodik üsulları cəmləşdirir. Tədqiq olunan mənbələr sırasında etnik mədəniyyətin real mövcud obyektləri, o cümlədən yaşlı nəslin yaddaşı əsasında bərpa edilən məluatlar, yazılı mənbələr, həmçinin arxeoloji materiallar və s., daxildir. Bu mənbələrin qarşılıqlı müqyisəli təhlili etnosun tarixi inkişaf mərhələlərini müəyyən etməyə imkan vermişdir.

8. Etnosun real məişət mədəniyyətini birbaşa müşahidə altına almaq üsulu ilə tədqiqat obyekti olan udilərin yaşadğı mühitdə və ətraf ərazilərdə çol tədqiqatları aparmaqla etnoqrafik faktlar qeydə alınmışdır. Eyni zamanda etnoqrfik faktın qeydə alınması və tətbiqinə yonəldilmiş kompleks metodik üsulları cəmləşdirən etnoqrafik mənbəni üzə çıxarmaq metodundan istifadə edilmişdir.

9. Etnoqrfik faktın qeydə alınması və tətbiqinə yonəldilmiş kompleks metodik üsulları cəmləşdirən etnoqrafik mənbəni üzə çıxarmaq metodundan istifadə etməklə etnoqrafik

mənbələrin aşagıdakı növləri əldə edilmişdir : 1.Müsahibələrin yazıya alınması, müşahidə və, foto, videogörüntü, audio səs yazıları, əşya koleksiyaları (Bütün mətnsiz etnoqrfik materialllara izahatlar əlavə olunmaqla) kimi müxtəlif növlü çol etnoqrafik mənbələr toplanmışdır; 2. Müxtəlif növlü yazılı mənbər akt və sənədlər, statistik və dövri mətbuat, və s. toplanmışdır; 3. Təsviri mənbələr, foto sənədlər;4. arxeoloji mənbələr; 5.Linqvistik və folklor mənbələri əldə edilmişdir.

10. Tədqiqat zamanı arxeologiya, folklor, demoqrafiya, kimi digər elm disiplinlərinin də məlumatlarından istifadə edilərək eyni zamanda umumi mənbəşünaslıq bazasından istifadə edilməklə layihə mövzusu ilə baglı aktlar və sənədlər toplusu, kameral təsvirlər və s. əldə edilmişdir. Etnoqarfik mənbələrin təsnifatı əldə edilmiş informasiyaların “kodlaşdırılması” yolu ilə müxtəlif (yazılı, şifahi, təsviri, əşyalar, təsviri mənbələr foto sənədlər və s.) kod sistemlərindən istifadə olunmuşdur.

11. Konkret sosioloji tədqiqatlar (sorgular) metodu – sorgular, anketləşdirmə, müsahibə, etnoqarfik məlumatların toplanmasında əsas metod olan müşahidə metodları ilə etnik özünüdərketmə, etnoslararsı əlaqələrlə baglı etnososioloji məlumatlar toplanmışdır. Bu metodla məlumat toplamaq üçün xüsusi seçilmiş informatordan sorgu yolu ilə məlumat alınmışdır.

12. Etnoqarfik məlumatların toplanmasında əsas metodlardan biri olan olan müşahidə metodundan istifadə edilməklə çol tədqiqatları zamanı xalqın arasında ənənəvi məişətin ayrı ayrı komponentləri haqda ilkin etnoqrafik məlumatlar toplanmışdır. Müşahidə yolu ilə mədəniyyət və məişət ənənələrinin öyrənilməsi və qeydə alınması prosesi aparılmışıdir.

| | |
|---|---|
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |

*(burada doldurmalı)*

Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlər 100% yerinə yetirilmişdir

3 Hesabat dövründə alınmış **elmi nəticələr** (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir)

*(burada doldurmalı)*

1. Respublika kitabxanaları, arxiv və fond materiallarının araşdırılması nəticəsində Qafqaz Albaniyası və onun əhalisi, Alban tayfa İttifaqına daxil olan etnoslar, o cümlədən, udi tayfaları haqqında antik və orta əsr müəlliflərinin əsərlərinin elektron kataloqu hazırlanmışdır. Alban Apostol Kilsə tarixi və kilsə qanunlarına dair, XIX əsrdə Rusiya imperiyası tərəfindən kilsənin ləgvi ilə baglı materilların olduğu arxiv sənədləri əldə edilmişdir. Eyni zamanda İncilin udi dilinin Oguz (keçmiş Vartaşen) dialektində tərcüməsi, Musa Kalankatlının “Albaniya tarixi” əsərinin ingilis dilinə ilk tərcuməsi (Dovset, 1861), Alban Apostol kilsəsi haqda ən qədim məlumatları vermiş Zaxari Ritorinin “Suriya xronikası” əsərinin 1899-cu ildə ingilis dilinə tərcümə olunmuş variantı (Thesyrıac Chronıcle Known as that of Zacharıah of Mıtylene. London 1899) kimi Qafqaz Albaniyası və əhalisi ilə baglı tədqiqatların yeni istiqamətdə aparılmasına kömək göstərəcək materiallar da əldə edilib elektron kataloqa daxil edilmişdir.

2. Mövcud mənbələr, tarixi-etnoqrafik və arxeoloji materiallar və elmi ekspedisiyalardan əldə olunan toponimik və etnoqrafik materialların qarşılıqlı müqayisəli təhlil nəticəsində udilərin etno-mədəni irsinin öyrənilməsi istiqamətində udilərin dini dünyagörüşlərinin iki istiqaməti - klassik ideologiya və ibtidai dünyagörüşləri ilə baglı inanclar müəyyən edilmişdir. Hazırda udilər arasında mövcud olan xristianlıq ənənələrinin tərkibində Qafqaz Albaniyası dövrünə aid bütpərəst inancların izlərini daşıyan sinkretik inamlar üzə çıxarılmış, əhalinin məişət və dini ənənələrində daha çox alban dövründən qalma ibtidai inancların qorunub qalmasının tarixi kökləri müəyyən edilmişdir. Bu aspektdə araşdırma bütövlükdə alban etnosunun bütün tarixi mərhələlərdə etnik xüsusiyyətlərini müəyyən etməyə imkan vemişdir.

3. Tarixi müqayisə metodu ilə udilərin məişət ənənələrinin bütövlükdə Azərbaycan əhalisinin məişət ənənələri ilə ortaq və spesifik xüsusiyyətləri, səbəbləri və mahiyyəti müəyyən edilmiş, elmi ekspedisiyalar zamanı qeydə alınmış bir sıra ayin mərasimlərində alban

ənənələrinin izləri müəyyən olunmuşdur. Bu ayinlərin təkçə udilərin deyil, bütün Qəbələ bölgəsinin inanc yeri olmaqla yanaşı, hətta albanların birbaşa varislərindən sayılan xınalıq, ingiloy və digərlərinin da sitayiş yeri olduğu müəyyən edilməklə alban mənşəli etnosların öxşar etnik xüsusiyyətləri təsbit edilmişdir. Bütövlükdə Azərbaycan əhalisinin alban köklərinin izləri və alban tayfalarının ortaq ənənələri ümumiləşdirilməsilə tarixi-genetik müqayisə metodu ilə Azərbaycan –udi etnogenetik əlaqələri və ümumalban ənənələrinin vahid kökləri üzə çıxarılmışdır.

4. Alban Apostol kilsəsinin tarixi keçmişi, Qafqaz Albaniyasında xristianlığın yayılması ərəfəsində xristianlığın təbliği edən Apostolların Qafqaz Albaniyasındakı missionerlik fəaliyyəti ilə baglı bir sıra yeni elmi məlumatlar üzə çıxarılmış, mənbələr və arxiv materiallları, həmçinin çöl etnoqrafik ekspedisiyalarının nəticələri əsasında Qafqaz Albaniyasında xristianlığı təbliğ edən ilk missionerlərin fəaliyyəti, onların Yerusəlimdən Albaniyaya uzanan yol xəritəsi, hərəkət marşrutu müəyyən edilmişdir.

5. Qafqaz Albaniyası ərazisində ciddi təqiblərə məruz qalan İlk xristian missionerləri, apostolların Qafqaz Albaniyasındakı fəaliyyəti, xüsusilə də Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin və onun tələbələrinin öldürüldüyü ərazilər ilk dəfə olaraq mənbələr, arxiv materiallları və etnoqrafik çöl materiallarının qarşılaşdırılması əsasında müəyyən edilmişdir. Araşdırmalar nəticəsində Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan onun öldürüldüyü ərazi - mənbələrdə adı çəkilən Zərquni, Qomenk (Homenk) toponimlərinin lokalizasiyası, etnoqrafik ekpedisiyalarımız, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə müəyyən edilmişdir.

6. Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin udilər arasında müqəddəsləşdirilməsinin səbəbləri müəyyən edilmiş, yerli əhali arasında Yeliseylə baglı əfsanələr toplanmış, inanc yerləri qeydə alınmışdır. Hazırda Şəki rayonunun Kiş kəndində, Oguzda, Qəbələnin Nic kəndində, eyni zamanda Dizaqlı kəndi yaxınlığında Komrad dagında mövcud olmuş V əsrə aid alban kilsəsinin udilər arasında Yeliseylə baglı olması və bu alban kilsələrinin müqəddəs Yeliseyin şərəfinə adlandırılmasıınn səbəbləri və tarixi kökləri müəyyənləşdirilmişdir. Hazırda bu qədim alban məbədlərinin hər biri, o cümlədən Yeliseyin əsasını qoydugu Kiş məbədinin inancından asılı olmayaraq bütün azərbaycanlıların pir kimi ziyarət etməsi

xalqın öz alban köklərini unutmadığı üzə çıxarılmışdır.

7. Etnoqrafik ekpedisiyalar zamanı əldə edilmiş materiallar-qədim alban izlərini daşıyan qəbir abidələri, kilsə qalıqları, xalqın yaddaşında qorunub qalmış alban ənənələri və inancları, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə Albaniyada ilk kilsənin əsasını qoymuş Müqəddəs Yeliseylə bagli qədim pir və ziyarətgah yeri aşkar edilmiş, yerli toponimlərin tədqiqi nəticəsində Yeliseyin Yerusəlimdən Kiş kəndinə qədər olan yol xəritəsi müəyyən edilmiş, mənbələr, XIX-XX əsrə aid arxiv materialları və toponimik materialların qarşılaşdırılması yolu ilə Yeliseyin və onun tələbələrinin Albaniyaya ərazisində qət etdiyi yerlər, həmçinin öldürüldükləri ərazilər Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan -mənbələrdə adı çəkilən Zərquni, xüsusilə də Qomenk (Homenk) toponimlərinin lokalizasiyası ilk dəfə olaraq müəyyən edilmişdir.

8. Müqayisəli dil metodu udilərin qədim mərasim ənənələri ilə bagli bir çox ümumalban və azərbaycan arxaik kəlmələrinin tarixi kökləri qarşılıqlı müqayisələrlə təhlil edilərək udi etnosunun ümumazərbaycan mühitində etnomədəni əlaqələrini müəyyən etmək mümkün olmuşdur. Eyni zamanda bir sıra udi ənənələrinin etnik spesifikasının müəyyənləşdirilməsi ilə bütövlükdə alban etnosunun etnik tarixinin bir çox məqamlarının bərpası, Azərbaycan etnoslarının etnogenetik ortaq baglarının üzə cıxarılması mümkün olmuşdur.

9. Mənbələr və arxiv materialları ilə yanaşı etnoqrafik materiallar əsasında da XIX əsrdən etibarən udilərin dini və etnik durumu ilə bagli problemlər, həmçinin XIX əsrin birinci yarısında yaranmış belə vəziyyətdə udilərin assimilyasiyaya məruz qalması, lakin erməni-qriqorian kilsəsinə tabe olmaq istəməyib, etnik identikliyini qoruyub saxlayaraq Azərbaycan tarixinə bağlılığı kimi məsələlər mənbələr və arxiv materiallları ilə yanaşı etnoqrafik materiallar əsasında da qarşılaşdırılaraq təhlil edilmişdir. Udilər iki əsr boyu alban xristian ibadətlərini özünəməxsus şəkildə dini və məişət ənənələrində davam etdirməklə alban kilsəsinə, etiqadlarına sadiq qalmağa çalışmışlar və bunula da öz mədəniyyətini, dilini, dinini, etnik kimliyini və etnik adını günümüzədək qoruyub saxlaya bilmişlər. Xalqın XIX əsrdən etibarən öz etnik identliyini qoruyub saxlaması və alban xristian ənənələrini davam etdirmək üçün rus pravoslav və erməni qriqoryan kilsəsinə tabe olmamamq üçün apardığı mabarizə ilə bagli Nic kəndinin sakinləri, xüsusilə də kəndin vaxtilə dini ibadətlərinin gizli şəkildə keçirildiyi ev müəyyən edilmiş, kəndin keçmiş keşişinin qohumları olmuş kənd

sakinlərindən müsahibələr alınmış, dəyərli elmi etnoqrafik materiallar əldə edilmişdir. Müəyyən edilmişdir ki, udilərin bir qismi , xüsusilə də NİC udiləri nə qriqoryan, nə də provoslav kilsəsinə getməyi qəbul etməyərək öz xristian ibadətlərini evlərində davam etdirməklə alban xristian ənənələrini qoruyub saxlmağa müvəffəq olmuşlar.

10. Udi etnosunun mədəniyyətində qorunub qalmış qədim dünyagörüşləri və adətlərin qeydə alınması zamanı, vaxtilə, xüsusilə də sovet dövründə unudulmuş və müstəqillik illərində Azərbaycan dövlətinin xalqların mədəni müxtəlifliyinə qaygısı nəticəsində yenidən bərpa edilən və yeni şəraitə uygunlaşdırılmış qədim alban ənənələri təsbit edilmişdir. Bu ənənələr sırasında müasir dövrdə formalaşmış bayramlar, məsələn, Alban Apostol kilsəsinin tarixi ənənələrini yaşadılması üçün yaradılmış Udi - alban xristian icmasının yaradılması, həmçinin Alban Yelisey (Çotari) kilsəsinin bərpa edilməsi, beynəlxalq udi günü kimi yeni bayram mərasimlərinin qeyd edilməsi və bu yeni ənənələri həmin gündə ortodoks kilsə ənənələri ilə vəftiz ayininin icra edilməsi kimi qədim ayinlərlə zənginləşdirilməsi təsbit edilmiş, eyni zamanda bazar günləri kilsəyə gəlmək, İsa Məsihin Mövlud gününün qeyd edilməsi, Mövlud bayramı oncəsi 40 gün pəhriz saxlamaq kimi yenidən bərpa olunan adətlər də təsbit edilmişdir. İcra olunan ayinlərdə ümumi xristian ənənələri mövcud olsa da, udilərin dini ayinlərin icrası zamanı spesifik, özünəməxsus alban inanclar sisteminə uygun elementləri müəyyən edilmişdir.

11. Əhalinin siyahıyaalma sənədləri ilə baglı statistik mənbələrdən müxtəlif səciyyəli etnik məlumatlar, sosial demoqrafik nəticələr əldə edilmişdir. Siyahıyaalma sənədlərinin təhlili bütövlükdə udi etnosunun inkişafının bir sıra fərqli tərəflərini, ümumi etnik mənzərəni- etnik proseslərin dinamikasını, həmçinin assimilyasiya və etnomiqrasiya proseslərini müşahidə etməyə, etnik miqrasiya məsələlərinə münasibət, etnoslararası əlaqələrlə baglı etnososioloji məlumatlar əldə etməyə imkan vermişdir. Aparılan elmi tədqiqatların nəticələri bu gün Azərbaycanda yaşayan udilərin dünyanın müxtəlif yerlərində (Rusiya, Gürcüstan və s.) yaşayan udilərdən fərqli olaraq öz etniik kimliyini itirmədiyini, heç bir assimilyasiya proseslərinə məruz qalmadığını, hazırda Rusiya, Gürcüstan kimi ölkələrdə yaşayan udilərin böyük bir qisminin assimilyasiya proseslərinə ugrayaraq bir çox hallarda ermənilışməyə, gürcüləşməyə məruz qaldığı halda Nic udilərinin Azərbaycandakı tolerantlıq və multikultural mühit nəticəsində öz qədim mənşəyini, inanclarını və dilini saxlamaqla yanaşı, hətta dini və etnik baxımdan yeni inkişaf mərhələsinə qədəm

qoyduğunu müəyyənləşdirməyə imkan vermişdir.

12. Tarixi köklərini Yerusəlimdən (Qüds) alan Alban Apostol kilsə tarixinin qədim ənənələrinin və onun qədim Şərq kilsələri ilə əlaqələrinin üzə çıxarılması istiqamətində beynəlxalq səviyyədə işlər aparılmış, layihə çərçivəsində ezam olunduğumuz xarici ölkələrdə albanların dini-mədəni irsinin araşdırılması aspektində apardığımız araşdırmalar nəticəsində Albaniyada xristianlığın ilkin mərhələsi olan həvvari –sirofil dövrü ilə bağlı ilə bağlı yeni mənbələr üzə çıxarılmışdır.

13. Türkiyənin Mardin şəhərində yerləşən **Deyrulzafaran** monastırındakı qədim kitabxanada erkən orta əsrlərdə Qədim Şərq kilsələrinin fəaliyyəti, onların Qafqaz Albaniyası, Alban Apostol kilsəsi ilə əlaqələri, Alban Apostol Kilsəsinin tarixi və kilsə qanunlarına dair materillar əldə etmək üçün bəzi qədim süryani qaynaqları gözdən keçirilmiş və IX-X əsrə aid "Kilsə qanunnanməsi" adlı qədim süryani qaynagında Albaniya kilsə tarixi ilə baglı bir sıra yeni məlumatlar əldə edilmişdir. Yerli süryani mütəxəssilərin köməyilə bu qədim mənbədən 325-ci ildə ilk kilsə qanunlarının əsaslarının müəyyən edildiyi, xristianlıq tarixinin ilk toplantısı olan məşhur Nikey məclisinə (türk-süryani qaynaqlarında İznik konseyi adlanır) qatılan 318 yepiskopdan birinin Alban Apostol kilsəsinin Zuilos adlı Qəbələ yepiskopu olması kimi yeni məlumat əldə edilmişdir.

14. Türkiyənin Mardin şəhərindəki arxiv və kitabxanalarda apardığımız araşdırmalar nəticəsində V əsr tarixini təsvir edən suriya xronikaçısı və Süryani kilsəsinə mənsub olan Zaxariya Mitilenlinin 12 cildlik "Suriya xronikası "əsərinin 5-6-əsrləri əhatə edən X cildinin 1899-cu ildə ingilis dilinə tərcümə edilmiş variantı əldə edilmiş, yunanca yazan müəllifin əsərinin süryani dilinə tərcümə edilmiş kilsə tarixinə həsr olunan 431-491-ci illəri əhatə edən iki cildinin təhlili ilə baglı yerli süryani mütəxəssiləri ilə elmi mübadiləyə başlanmışdır.

15. Kitabxana çalışmalarında həmçinin Azərbaycanın Albaniya dövrü tarixində xüsusi yeri olan missionerlik fəaliiyətlərini bir sıra xalqlar, o cümlədən albanlar arasında da təblig edərək yaymış Suriya missionerlərinin Azərbaycandakı missionerlik fəaliyyəti ilə baglı məlumatlar da əldə edilmişdir. Azərbaycanda Cərçiş peygəmbər adı ilə müqəddəsləşdirilən süryani missioneri Mor Cerçisin (Aziz Georgius, müqəddəs Georgi) missionerlik fəaliyyəti ilə bağlı məlumatlar əldə edilmiş, Qafqaz Albaniyasında xristianlığın yayıldığı dövrlərdən bəri

mövcud olan və hazırda da azərbaycanlılar tərəfindən ziyarət edilərək *Cərçis Peygəmbər ziyarətgahı* adı verilən bu qədim ibadətgah ilə bir çox süryani kilsələrinə də adını verilmiş Mor Cerçis (Müqəddəs Çərçiş) ibadətgahlarının tarixi əlaqələri üzə çıxarılmışdır.

16. Udilərin etnomədəni dini irsinin tədqiqi sahəsində xarici mütəxəssislərlə, o cümlədən Bion Veggi (Norveç), Gabriyel Akyüz (Türkiyə), Saliba Özmen (Türkiyə) kimi qədim Şərq xristianlığı və qədim süryani dili üzrə mütəxəssislərlə elmi əlaqələr yaradılmışdır. Oslo Universitetinin professoru, Norveçin Yazıçılar Birliyinin üzvü Bion Veggi- ortodoks kilsələrinin tarixi ənənələri və Alban Apostol kilsəsinin qədim Şərq kilsələri arasında yeri mövzusu ilə əlaqədar elmi diskusiyalar və müzakirələr təşkil edilmişdir.

17. Türkiyə Diyarbakır və Mardin metropoliti Saliba Özmen Qədim Şərq ortodoks kilsələrinin Alban Apostol kilsəsi ilə tarixi əlaqələri, o cümlədən Alban Apostol kilsəsinin tarixi, keçmiş ənənələri, kilsə qanunları, mərasim və ayinlərinin öyrənilməsi və bərpası məsələlərinin müzakirələri təşkil edilmişdir.

18. Horiepiskopos Gabrieyel Akyüz, qədim suriya (süryani) mənbələri üzrə mütəxəssis – Mardin bölgəsindəki qədim Şərq kilsələrinin tarixi, suryani dilindəki kilsə tarixi ilə baglı mənbələrin araşdırılması, xüsusilə də, Albaniyada xristinalığı ilk yayan apostollar-Varfolomey, Faddeyin şagirdi Yeliseyle baglı, həmçinin Alban Apostol kilsəsinin yepiskopları barədə Qədim Şərqin kilsə və monastrlarda qorunub qalmış mənbələrdəki məlumatların əldə edilməsi və süryanicədən tərcümə edilməsi ilə baglı elmi əlaqələr qurulmuşdur.

19. Azərbaycanda tolerantlığın nümunəvi modeli kimi udilərin dini və etnomədəni irsi, etnosiyasi aspektlərinin təhlil edilərək mühüm elmi nəticələr əldə edilməsi davam etdirilmişdir. Cari rübdə udilərin miqrasiyasına səbəb olan siyasi və tarixi faktorlar üzə çıxarılmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycandakı etnosiyasi vəziyyətin təhlili, Azərbaycanın Qəbələ rayonu Nic kəndində kompkt şəkildə məskun olan udi etnosunun tarixi, qədim dövrlərdən bəri udilərin etnik tarixinin mərhələləri və miqrasiya prosesləri, Azərbaycanın polietnik cəmiyyətində udi etnosunun yeri və rolu, udilərin məişəti, həmçinin Azərbaycanda etnomədəni müxtəlifliyin aspektləri, tarixi kökləri, üzə çıxarılmışdır.

20. Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış alban tayfa ittifaqı və bu ittifaqa daxil olan udi tayfalarının çoxəsrlik dini, etno-mədəni həyatı ilk dəfə olaraq qarşılıqlı müqayisələrlə tədqiqata cəlb edilməklə bütövlükdə xalqımızın təşəkkül prosesinin mühüm dövrü izlənmiş, bütövlükdə azərbaycanlıların, o cümlədən Azərbaycanda məskun olan xınalıq, qrız, buduq, ingiloy, ləzgi, saxur kimi alban tayfalarının birbaşa varisləri olan bir sıra etnoslar ümumalban, ümumazərbaycan ənənələri üzə çıxarılmışdır.

21. Udilərin dini və etnomədəni ənənənlərinin tədqiqi nəticəsində həm Azərbaycanda, həm də bütövlükdə Qafqazda qədim və orta əsrlərdə gedən etno-mədəni və dini-ideoloji proseslər, Azərbaycan din tarixinin mühüm mərhələlərindən biri olan xristianlıq dövrü, Qafqaz Albaniyasında xristianlığın yayılması və xristianlıq ənənələrinin formalaşması və movcudluğu mərhələləri, o cümlədən mədəni irsdəki varislik prosesləri izlənmişdir.

22. Layihə mövzusu ilə bağlı əldə edilmiş bir sıra yeni fond və arxiv, eləcə də folklor materialları- XIX əsr müəlliflərinin əsərləri və XIX–XX əsrin əvvəllərinə aid dövri nəşrlər, həmçinin XIX-–XX əsrlərdən dövrümüzədək nəşr olunan müxtəlif səciyyəli məcmuələr, təqvimlər, icmallar, Alban tayfa İttifaqı və bu ittifaqa daxil olan udi tayfaları haqqında antik və orta əsr müəlliflərinin əsərlərinin məcmusu əsasında ötən əsrin ortalarınadək dini və etnik kimliyi dolaşıqlığa salınan və Azərbaycan alban tayfalarının birbaşa varislərindən olan udilərin etnik tarixi və etnik ənənələri, dini və etno mədəni irsi, son albanlar olaraq yalnız udilərin öz alban kimliklərini və alban xristian ənənələrini günümüzədək müəyyən dərəcədə qoruyub saxlamasının əsas səbəbləri tədqiq edilərək üzə çıxarılmışdır.

23. Qəbələ bölgəsinnin arxeoloji-etnoqrafik tədqiqi zamanı bölgənin memarlıq və qəbir abidələrinin, həmçinin xalq inanclarının qarşılaşdırılması yolu ilə Yaloylutəpə arxeoloji mədəniyyətinə aid edilən bir sıra mərasim ayinlərinin hazırda da bölgənin qədim sitayiş yerlərində alban ənənələrinin xalq yaddaşında qalan arxaik ənənələrin izlərinin təsbit edilməsi nəticəsində alban mədəniyyəti və etnosunun zəngin və qədim ənənələrinin izləri üzə çıxarıışdır.

24. Qafqaz Albaniyasının mərkəzi vilayətinin yerləşdiyi Qəbələnin bölgəsinin və alban

tayfalarının birbaşa varislərindən olan xınalıq, qrız və buduqlrın məskun olduğu Quba bölgəsinin qədim qəbir abidələrinin qarşılaşdırılması nəticəsində Alban mədəniyyəti üçün səciyyəvi olan astral inamlar və təbiət qüvvələri ilə bağlı müəyyən dünyagörüş və simvolik işarə motivlərinin xüsusilə Günəş kultunun izlərini daşıyan oymalı naxışları əks etdirən bir çox maraqlı bədii tərtibatlı məzar daşlarının eyniliyi təsbit edilmiş, qədim qəbirstanlıqlarda orta əsrlərə aid qəbir daşlarındakı nəbati və zoomorf qabartma təsvirlərin Albaniya həkkaklıq və heykəltəraşlıq nümunələri üçün xarakterik olan umumalban ənənələrinə uygun olduğu müəyyən edilmişdir. Xüsusilə həm Qəbələnin Həzrə, həm də Qubanın Xınalıq, Buduq, Qrız kimi kəndlərindəki qədim qəbiristanlardakı at və atın başı üstündə günəş təsvirli müxtəlif qəbir daşları at kultu ilə baglı ümumazərbaycan umumalban ənənələrini əks etdirməkdə olduğu təsbit edilmişdir. Qəbələ bölgəsi ilə baglı arxeoloji tədqiqatların araşdırlması nəticəsində Yaloylutəpə arxeoloji mədəniyyətinə aid bəzi qəbirlərdən at sümükləri və at yüyəni tapılmasılə bu qədim mərasim ayininin tarixi köklərinin ibtidai icma dövrləinədək uzandığı müəyyən edilmişdir.

25. Erkən orta əsr alban vilayətlərinin tarixi aqibəti, Bizans-Sasani -Ərəb yürüşlri dövründəki tarixi hadisələr, erkən orta əsrlərdə alban tayfalarının və alban mahallarının tarixinin, bununla da qədim alban tayfalarının etnogenetik köklərinin daha fərqli aspektdə araşdırılması üçün Azərbaycanın şimal-şərq və şimal-qərb bölgələrinin orta əsrlərə aid bəzi maddi və mənəvi mədəniyyət nümunələrinin, toponimikasının, həmçinin xalq inanclarının qarşılıqlı müqayisələrlə təhlilinə yer verilməklə alban tayfalarının, xüsusilə, orta əsr qaynaqlarında adı çəkilən Hereti, Bed, Xeni alban vilayətlərinin tarixi, bu alban mahallarının əhalisinin Sasani, Bizans, Ərəb xilafəti, həmçinin xəzərlərin yürüşlərindən qorunmaq üçün Albaniyanın şimal-qərb bölgələrindən şimal-şərqdə, yüksək daglıq ərazilərdə əlçatmaq yerlərdə məskunlaşmış olduğu tutarlı elmi dəlillərlə müəyyən edilmiş, bu etnosların tarixi ilə baglı yeni elmi nəticələr əldə edilmişdir.

26. Alban tayfalarının birbaşa varislərindən olan xınaıqların, buduqların, qrızların, həmçinin hapıtların məişət ənənələrinin udilərlə eynilik təşkil etməsi, bu alban tayfalarının inanclar sistemində həm xristianlığa qədərki, həm də islamaqədərki alban inanclarının izlərini daşıyan arxaik elementlərin də qorunub qalması müəyyən edilmiş, bu etnosların ümumalban köklərini üzə çıxarmışdır.

27. Qəbələ bölgəsində Şeşpər baba, Komrat, Qala piri, Sarılıq piri, Toyuqqıran piri, Şəki-Zaqatala bölgəsində Kiş, Kürmük, Pəriqala kimi qədim inanc yerlərində apardığımız etnoqrafik tədqiqatlar nəticəsində ümumalban ənənələri üzə çıxarılmış, **b**u inanc yerlərində alban tayfalarının qədim inanclarının, astral təsəvvürlərinin islam ideologiyasının təsiri ilə daha da təkmilləşərək tədricən islami dəyər qazandığı, dini sinkretizmə gətirib çıxardığı təsbit edilmişdir. Həmçinin bölgələrdə yerli əhalinin məişətində qorunub qalmış bir sıra adət-ənənlərdə və xalq inamlarında, eyni zamanda qədim başdaşlarıının üzərindəki təsvirlərdə müxtəlif dini dünyagörüşlərin, xristianlığa və islamaqədər inancların izləri müəyyən edilmişdir.

28. Qəbələ bölgəsinin arxeoloji-etnoqrafik tədqiqi zamanı təsbit edilmiş qəbir daşlarının islam dövrünə aid olmasına baxmayaraq bu başdaşlarında qədim alban inanclarının elementlərinin öz əksini tapması, bu elementlərin xalqın məişətində, hətta dəfn adətlərində yaşamaqda olduğu müəyyən edilmişdir. Bu qəbirüstü abidələrindəki daşların üzərindəki təsvirlərin dekorativ tərtibatının təhlili nəticəsində bölgədə islam dininin yayılmasından sonra belə daş stelalarda islam ənənələri ilə yanaşı bədii Alban incəsənətinə və inanclarına aid olan bir sıra elementlərin qorunub saxlandığı, Qafqaz Albaniyasının süqutundan sonra, islamın bütün Azərbaycanda bərqərar olduğu dövrlərdə də bölgədə Qafqaz Albaniyası sənətkarlığına xas olan daş üzərində bədii oyma üsulunun tətbiqinin davam etdirildiyi təsbit olunmuşdur. Xüsusilə də belə abidələrdə qədim alban bəzək motivlərindən - dolama və buruq şəkilli xətlərdən istifadə bu daşları Qafqaz Albaniyası abidələri və incəsənət nümunələri ilə əlaqələndirməyə imkan vermişdir.

29. Albaniyaya xristianlığın yaranmasının ilk mərhələsində Varfolomey, Faddey (Addey) , Marr və Yelisey kimi Qüdsdən gələn həvvarilər və onların tələbələrinin Qüdsdən Qafqaz Albaniyasına uzanan yol xəritəsi, xüsusilə də Müqəddəs Yeliseyin Qüdsdən Kişə qədər davam edən və Zərquni vadisində bitən dini fəaliyyəti, onun udi xristian ənənələrindəki özünəməxsus yeri müəyyən edilmişdir.

30. Qafqaz Albaniyasında xristianlığın sirofil (süryani) dövrü adlanan ilkin mərhələsi ilə bagli yeni elmi faktlar üzə çıxarılmışdır. Eranın I əsrində xristianlığı qəbul etmiş xristian nazareylər (ilk xristianlar) adlanan Qafqaz yəhudilərinin, burada məskunlaşmış yəhudi icmaları ilk xristianlığı qəbul edənlərdən olduqları və aramey dilində danışdıqları, bu

baxımdan da Cənubi Qafqaz ərazilərində xristianlıq suriya –aramey dili vasitəsilə daha rahat qəbul edilərək yayılmaqda olduğu üçün Albaniyada da xristianlığın ilkin mərhələsində kilsə dili Suriya dili olmuşdu. Bu baxımdan Şərq xristianlığının ən qədim ənənələrinin ilkinliyini günümüzədək quruyub saxlamış, qədim kilsə dilləri olan süryani dilini bu gün kilsə ibadətlərində istifadə edən, hazırda Türkiyənin Mardin, Diyarbəkir, Urfa, Antakya kimi bölgələrində məskun olan süryanilərin (assuriyalılar) kilsə kitabxanalarında qorunub qalmış qədim mənbələrinin araşdırılması yolunda mühüm elmi-praktiki addımlar atılmışdır. Mövcud ortodoksal kilsə ənənələri əsasında, dini ideologiyanın tarixi-etnoqrafik təhlili üçün kilsə tarixi, qanunları və təlimləri ilə baglı araşdırmalar edilmiş, xüsusilə də Albaniyada xristianlığın yaranmasının ilkin mərhələsi olan həvari (sirofil) dövrü qədim Şərq mənbələri olan süryani qaynaqları əsasında ararşdırılmış, Qədim Şərqin ortodoks kilsələri ilə müqayisələr aparılmış, eyni zamanda hazırda Türkiyənin Mardin bölgəsində yerləşən süryani kilsələri ilə Alban Apostol kilsəsinin vahid kökdən Yerusəlimdən gələn qədim umumi ənənələrinin üzə çıxarılması istiqamətində yeni elmi nəticələr əldə edilmişdir.

31. Mardin Universitetinin “Süryani dili və ədəbiyyatı” fakültəsinin əməkdaşları ilə elmi əlaqələrin qurulması nəticəsində erkən orta əsrlərdə Qədim Şərq kilsələrinin fəaliyyəti, onların Qafqaz Albaniyası, Alban Apostol kilsəsi ilə əlaqələri, qədim Şərq monastır və kilsələrinin Alban Apostol kilsəsi ilə, həmçinin Azərbaycanın erkən orta əsrlər dini tarixi əlaqələri, Alban Apostol Kilsəsinin tarixi və kilsə qanunlarına dair materillar, həmçinin dini və məişət ənənələri öyrənilərək üzə çıxarılmışdır. Şərq kilsə tarixini tədqiq edən bir sıra alimlərlə qurulmuş elmi əlaqələr nəticəsində tarixi köklərini Yerusəlimdən alan Alban Apostol kilsə tarixinin qədim ənənələri və onun qədim Şərq kilsələri ilə əlaqələri təhlil edilmiş, qədim Şərq xristianlığı ilə baglı süryani kilsələrində qorunub saxlanmış qiymətli fond və arxiv materialları, xüsusilə də, Qafqaz Albaniyasında xristianlığı yayan həvvarilərin tarixinə dair yeni materiallar əldə edilmişdir. Qafqaz Albaniyası ərazisində ciddi təqiblərə məruz qalan ilk xristian missionerləri, apostolların Qafqaz Albaniyasındakı fəaliyyəti, xüsusilə də Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin və onun tələbələrinin öldürüldüyü ərazilər ilk dəfə olaraq mənbələr, arxiv materialllari və etnoqrafik çöl materiallarının qarşılaşdırılması əsasında müəyyən edilmişdir. Araşdırmalar nəticəsində Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan onun öldürüldüyü ərazi - mənbələrdə adı çəkilən Zərquni,

Qomenk (Homenk) toponimlərinin lokalizasiyası, etnoqrafik ekspedisiyalarımız, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə müəyyən edilmişdir.

32. Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Müqəddəs Faddeyin tələbəsi olmuş və həvvari Yakov tərəfindən Albaniyaya göndərilmiş Yeliseyin Yerusəlimdən Məskutlar ölkəsinə, Çolaya, oradan da Uti vilayətinə, ən sonda Kiş bölgəsində alban kilsəsinin əsasını qoymaqla tamamlanan xristianlığı təbliğ etməsi dönəmində dini fəaliyyətini icra etdiyi marşrutla yanaşı udilər arasında müqəddəsləşdirilməsinin səbəbləri müəyyən edilmiş, yerli əhali arasında, xüsusilə də Yeliseyin öldürüldüyü Zərquni vadisinin əhatə etdiyi tarixi ərazilər ilk dəfə olaraq yazılı qaynaqlar, arxeoloji-etnoqrafik materialların qarşılaşdırılması yolu ilə müəəyən edilmiş, eyni zamanda həmin ərazilərdə Yeliseylə baglı xalq arasında yaygın olan əfsanələr toplanmış, inanc yerləri qeydə alınmışdır. Hazırda Şəki rayonunun Kiş kəndində Kiş məbədinin, Oguzda müqəddəs Yelisey məbədinin, Qəbələnin Nic kəndində Çotari kilsəsinin, eyni zamanda Dizaqlı kəndi yaxınlığında Komrad dagında mövcud olmuş V əsrə aid alban kilsəsinin udilər arasında Yeliseylə baglı olması və bu alban kilsələrinin müqəddəs Yeliseyin şərəfinə adlandırılmasıınn səbəbləri və tarixi kökləri, bu qədim alban məbədlərinin hər birinə inancından asılı olmayaraq bütün azərbaycanlıların pir kimi ziyarət etməsindəki alban ənənələrinin izləri üzə çıxarılmışdır.

33. Alban kilsəsinin ibadət dili ilk öncə süryani dili olduğu üçün süryani kilsəsinin ibadət ənənələrinin öyrənilməsi Alban Apostol kilsəsinin dirçəldilməsində və ibadət ənənələrinin bərpa edilməsində mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq Alban Apostol kilsəsinin tarixi ənənələrinin bərpa edilməsi və tarixi köklərinin araşdırılması işində Şərq xristian teologiyasına baglı olan Süryani Ortodoks kilsəsi ilə qarşılıqlı əlaqələrin genişlənməsi və dioloqun güclənməsi davam etdirilmiş, keçmişdən bu günədək udilərin etnik və dini durumu, Qafqaz Albaniyası Apostol kilsəsinin tarixi ənənələri, Qafqaz Albaniyası Apostol Kilsəsinin tarixi ənənələrinin bərpası məsələləri və yolları ilə baglı Norvec, Türkiyə, ABŞ alimlərinin iştirakı ilə təşkil edilmiş beynəlxalq səviyyəli elmi seminar və konfranslarda aparılan müzakirələr nəticəsində Alban Apostol Avtokefal kilsəsinin tarixi ənənələrinin bərpası istiqamətində yeni elmi-nəzəri konsepsiya işlənib hazırlanmışdır.

34. XIX əsrdən etibarən Dağlıq Qarabağda və Ermənistanda ciddi assimilyasiya proseslərinə məruz qalan və XX əsr boyu Gürcüstan, Rusiaya, Ukraynaya miqrasiyası davam edən udilərin bu ölkələrdə tamamilə assimilyasi olunduğu və Azərbaycandan kənarda yaşayan udilərin Azərbaycan udilərindən fərqli olaraq assimlyasiya proseslərinin sürətlə getməsinin, bunun əksinə olaraq hazırda Azərbaycanda Qəbələnin Nic kəndində kompakt yaşayan udilərin etnik ənənələrinin, dilinin, dininin, mədəniyyətinin qorunub qalmasının səbəbləri üzə çıxarılmışdır. Nic qəsəbəsində yaşayan udilərlələ Rusiya və Ukrayna, Belorusiya, Gürcüstanda yaşayan (Kvareli bölgəsinin Zinobiani kəndində) udilərin müqayisəli qarşılaşdırılması nəticəsində miqrasiya etmiş udilərinin Azərbaycan udiləri ilə ümumi və fərqli xüsusiyyətləri müəyyən edilmişdir. Bu gün Rusiya, Gürcüstan kimi ölkələrdə yaşayan udilərin böyük bir qismi assimilyasiya proseslərinə ugrayaraq bir çox hallarda ermənilışməyə, gürcüləşməyə məruz qaldığı halda Nic udilərinin Azərbaycandakı tolerantlıq və multikultural mühit nəticəsində istər dini, istərsə də etnik baxımdan yeni inkişaf mərhələsinə qədəm qoyması, Rusiya və Ukrayna, Belorusiya, Gürcüstanda yaşayan udilər arasında assimilyasiya proseslərinin daha sürətlə getməsinin bu ölkələrdəki udi ailələrində daha perspektivli və daha yaygın olan müvafiq rus,gürcü dillərində danışmağa üstünlük verilməsi, evlilik və din faktoru kimi bir sıra assimliyasiya səbəbləri müəyyən edilmişdir. Aparılan müqayisəli xarakterli elmi araşdırmalar bu gün Azərbaycanda yaşayan udilərin dünyanın müxtəlif yerlərində Rusiya, Gürcüstan və s. kimi bölgələrdə eyni dindən olan, yəni xristian əhali ilə birgə yaşayan udilərdən fərqli olaraq öz etniik kimliyini itirmədiyi, heç bir assimilyasiya proseslərinə məruz qalmadığını və bunun Azərbaycanın multikultural və tolerant mühiti ilə əlaqədar olduğu təsbit edilmişdir.

35. Azərbaycanın şimal-qərb bölgələri ilə yanaşı XIX əsrədək udilərin yayılma arealları, xüsusilə də Musa Kalankatlının “Alban tarixi” əsərində uti mahalları olaraq adı çəkilən toponimlərin lokolizasiyasını müəyyənləşdirmək üçün tarixi Uti viləyətinin ərazisinə daxil olan Qazax-Akstafa bölgəsinin də etnoqrafik tədqiqatlara cəlb edilməsi nəticəsində udilərin yayılma arealları, məskunlaşma tarixi, xüsusilə də Qazax-Akstafa bölgəsindəki Kirzan kəndində məskunlaşma tarixi, XIX əsrdə Qarabağ bölgəsindən udilərin Nuxa qəzasına kütləvi axınları, XIX əsrin sonu- XX əsrin əvvəllərində udilərin dini və etnik vəziyyəti ilə bagli yeni tarixi faktlar əldə edilmişdir.

36. Layihənin mövzusuna uygun olaraq aparılan elmi araşdırmaların nəticələrinin öz əksini tapdığı monoqarfiyanın ilkin planı və mətnin ilkin variantı, həmçinin etnoqrfafik səfərlər zamanı əldə edilmiş fotoloarın elektron kataloqu hazırlanmışdır. Monoqarfiyada alban tayfalarının birbaşa varislərindən olan udilərin etnik tarixi, etnosun XIX əsrədək yayılma arealı, dini və etnik durumu, və XIX -XX əsrlər boyu miqrasiya proseslərinin, həmçinin müasir dövrdə udilərin dini və etnik ənənələri, mərasim ayinləri, Nic kəndindəki multikulturalizm və tolerantlıq mühitinin öz əksini tapması nəzərdə tutulmuşdur.

4 Layihə üzrə **elmi nəşrlər** (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)*

*(burada doldurmalı)*

1. Məhəbbət Paşayeva. Qəbələ bölgəsində qədim alban ənənələrinin izləri. Qəbələ arxeologiyası. Beynəlxalq Elmi Seminar. Bakı, CBS, 21-23 oktyabr, 2017

2. Məhəbbət Paşayeva. 1836-cı ildə Alban kilsəsinin ləgvindən sonra udilərin dini və etnik durumu. Arif Abbasovun 80 illiyinə həsr olunmuş Elmi sessiya. Bakı, 27 dekabr 2017

3. M. Paşayeva “Azərbaycanda tolerantlıq və multikulturalizm dəyərlərinin yaşayan nümunəsi-udilər”. Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar” elmi sessiyanın materialları. Bakı, 2018 07 fevral . s. 92-93

4. Paşayeva Məhəbbət -“Доисламские религии в Азербайджане” Материалы v международной научно-практической конференции «Религия и история» Минск «Ковчег» 2018. s.17-24

5. Ü.Hacıyeva, M.Paşayeva, R.Mobili (müştərək) -«Удины_– неотъемлемая часть паствы Албанской (Кавказской) Апостольской Автокефальной Церкви» Материалы v

международной научно-практической конференции «Религия и история» Минск «Ковчег» 2018 s.59-65

6. Robert Mobili. «Албанская (Кавказская) Апостольская церковь: История и современность». Материалы v международной научно-практической конференции «религия и история» Минск «Ковчег» 2018 S.65-69

7. Ü.Hacıyeva «Энический состав паствы Албанской Апостолской церкви» Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar" elmi sessiyanın materialları. Bakı, 2018 07 fevral c.107-109

8. Ü.Hacıyeva Миссионерская деятельность святого Елисея Dövlət və Din " jurnalı N1 2018 s.110-119.

9. Ü.Hacıyeva Некоторые данные о геополитических и конфессиональных изменениях в юго-восточной части Южного Кавказа в XVII-XIX веках. Arxeologiya və Etnoqrafiya jurnalı 2018 N1

10. M.Paşayeva, R.Mobili Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsi. (tarixi-etnoqrafik tədqiqat) *(Monoqrafiya capa hazırdır və elektron forması EİF-ə təqdim edilmişdir)*

11. M.Paşayeva, R.Mobili Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsi. Fotoalbom. (*elektron forması EİF-ə təqdim edilmişdir).*

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *(burada doldurmalı)* |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(burada doldurmalı)*<br>1) **2.10.2017-7.10.2017 tarixlərində Gürcüstanın Tiflis şəhərinə ezamiyyət həyata keçirilmişdir.** Ezamiyyə Tbilisi Dövlət Universiteti nəzdindəTbilisi İlahiyyat İnstitutu, Gürcüstan Milli Arxivi və Gürcüstan Udin Milli Mədəniyyət Mərkəzində icra edilmişdir; |

1. Gürcüstana ezamiyyət zamanı layihənin elmi istiqaməti üzrə Azərbaycanın keçmişdən bu günə uzanan multikultural ənənələrinin beynəlxalq elmi ictimaiyyətə tanıdılması ilə bağlı bir sıra tədbirlər, Norvec, Türkiyə, ABŞ alimlərinin iştirakı ilə beynəlxalq səviyyəli elmi seminarlar təşkil edilmişdir. Gürcüstan İlahiyyat İnstitutunun və Norveç Humanitar Təşkilatının nümayəndələrinin də qatıldığı elmi seminarda keçmişdən bu günədək udilərin etnik və dini durumu, Qafqaz Albaniyası Apostol kilsəsinin tarixi ənənələri, Qafqaz Albaniyası Apostol Kilsəsinin yenidən bərpası məsələləri və yolları müzakirə edilmişdir.
2. Gürcüstan elmi ictimaiyyətinə Qafqaz Albaniyası, onun əhallisi, xüsusilə də udilərin qədim alban xristian ənənələrinin tarixi kökləri ilə baglı məlumatlar, verilmişdir. Hələ Qafqaz Albaniyası dövründən etnik və dini rəngarəngliyin movcud olduğu Azərbaycan ərazisindəki multikultural mühitin tarixi keçmişdən bu günədək yaşayan ənənələri müzakirə edilmişdir. Azərbaycanda yaşayan udilərin etnik tarixini, etnik ənənələrini, xüsusiyyətlərini, dillərini, inanclarını, adət-ənənələrini, ünsiyyət formaları, udi etnosunun bütövlükdə Azərbaycan multikulturalizm mühitindəki yeri, ümumazərbaycan mədəniyyətinə verdiyi töhfələr barədə geniş məlumat verilmişdir.
3. Ezamiyyət müddətində Kvareli rayonu (Zinobiani kəndi) bölgəsində kompakt yaşayan udilərlə görüş baş tutmuşdur. Görüşdə Azərbaycan Udi İcmasnının Alban Apostol kilsəsinin tarixi ənənələrini, bununla da alban etnik kimliyini yaşatmaq üçün gördüyü bir sıra tədbirlər, həmçinin Azərbaycanda yaşayan udilərin hər il udi alban xristian icmasının yarandığı, Alban Apostol kilsəsinin tarixi ənənələrini yaşatmağa çalışan Alban Yelisey (Çotari) kilsəsinin bərpa gününü bir sıra tədbirlər silsiləsilə qeyd etməsi və ildən ilə belə tədbirlərin əhatə dairəsinin genişləndiriiməsi kimi məsələlər barədə geniş məlumat verilmişdir. Görüş zamanı Azərbaycan Respublikasındakı multikultural mühitdən və tolerantlıq ənənələrindən geniş söhbət açılmışdır.
4. Ezamiyyə zamanı Gürcüstanda yaşayan udilərin, Azərbaycanın Qəbələ bölgəsinin Nic qəsəbəsində yaşayan udilərlələ ümumi və fərqli xüsusiyyətləri müəyyən edilmişdir. Aparılan müqayisəli xarakterli elmi araşdırmalar bu gün Azərbaycanda yaşayan udilərin dünyanın müxtəlif yerlərində (Rusiya, Gürcüstan və s.) yaşayan udilərdən fərqli olaraq öz etniik kimliyini itirmədiyi, heç bir assimilyasiya proseslərinə məruz qalmadığını söyləməyə əsas verir. Bu gün Rusiya, Gürcüstan kimi ölkələrdə yaşayan udilərin böyük bir qismi assimilyasiya proseslərinə ugrayaraq bir çox hallarda ermənilışməyə, gürcüləşməyə məruz qaldığı halda Nic udiləri Azərbaycandakı tolerantlıq və

multikultural mühit nəticəsində istər dini, istərsə də etnik baxımdan yeni inkişaf mərhələsinə qədəm qoymuşlar.

5. Ezamiiyət zamanı layihə mövzusuna dair Gürcüstanın fond və arxivlərindən toplanması nəzərdə tutulmuş materiallar Gürcüstanın Tiflis şəhərinə səfər edilərək toplanmışdır. Qədim və orta əsrlərdə Alban tayfa İttifaqına daxil olan alban tayfaları, o cümlədən udilər, Qafqaz Albaniyası, Alban Apostol kilsəsi ilə baglı, Alban Apostol Kilsəsinin tarixi və kilsə qanunlarına dair materillar, həmçinin udilərin folkloru, dini və məişət ənənələri ilə baglı geniş arxiv materialları, o cümlədən İncilin (Vetxiy Zovet) kiril qrafikası əsasında udin dilinin Oguz (keçmiş Vartaşen) dialektində tərcüməsi, Musa Kalankatlının “Albaniya tarixi” əsərinin ingilis dilinə ilk tərcuməsi (Dovset, 1861) kimi qiymətli materiallar əldə edilmişdir.

**2) 22.03.2018 - 27.03.2018 -ci il tarixlərində Türkiyə Cümhuriyyətinin Mardin şəhərinə Mardin və Diyarbekir Metropolitliyində ezamiyyət baş tutmuşdur;**

1. Ezamiiyət zamanı layihə mövzusuna dair Qədim Şərq xristianlıq tarixi ilə baglı yeni mənbələr əldə etmək üçün kökləri beş min il öncəyə dayanan “assur” və ya “süryani” adı ilə tanınan Yuxarı Mesopotamiyanın xristian toplumuna aid olan və bu günədək ən qədim kilsə ənənələrini və tarixini, dilini saxlamış süryani kilsərininin nəzdində olan kitabxanalardan və arxivlərdən materiallar toplanmışdır.
2. Səfər zamanı V əsrdən inşa edilmiş, VIII əsrdə Müqəddəs Hananyo və XII əsrdə isə Mardin mitropoliti Müqəddəs Yohan tərəfindən restavrasiya edilmiş, xüsusilə də patriklik mərkəzi olduqdan sonra daha da zənginləşmiş Deyrulzafaran monastırındakı kitabxana, Kirklar kilisesi, Mor Qabriel Monastırının nəzdindəki kitabxanaların, həmçinin Mardin arxivindəki materialları incələnmişdir. bir sıra qədim süryani qaynaqları gözdən keçirilmiş, erkən orta əsrlərdə Qədim Şərq kilsələrinin fəaliyyəti, onların Qafqaz Albaniyası, Alban Apostol kilsəsi ilə əlaqələri, Alban Apostol Kilsəsinin tarixi və kilsə qanunlarına dair materillar, həmçinin dini və məişət ənənələri ilə baglı geniş arxiv materialları, o cümlədən IX-X əsrə aid olan qədim süryani qaynagı “Kilsə qanunnanməsi” təhlil edilmişdir. Bu qədim mənbədən müəyyən olunmuşdur ki, Alban Apostol kilsəsinin yepiskoplarınddan Qəbələ yepiskopu 325-ci ildə ilk kilsə qanunlarının əsaslarının müəyyən edildiyi, xristianlıq tarixinin ilk toplantısı olan məşhur Nikey məclisində (türk-süryani qaynaqlarında İznik konseyi adlanır) qatılan 318 yepiskopdan biri olmuşdur. Qeyd etmək lazımdır ki, V əsrədək Alban yepiskopluğunun iqamətgahı

Qəbələdə yerləşirdi, hətta Aquen kilsə Qanunnaməsindəki imzalar sırasında altındakı imzalardan danışarkən hökmdar Vaçaqandan və Partav arxiyepiskopundan sonra Qəbələ yepiskopunun da imzasının durduğunu məlumdur. Bu baxımdan hələ IV əsrin əvvələində Qəbələ yepiskopunun Məşhur Nikey məclisində (İznik konseyi) – ilk böyük xristian məclisində iştirakına dair qədim süryani mənbəsindən məlumat əldə edilməsi Albaniya tarixinin, Alban Apostol kilsəsinin tarixinin və onun Şərq xristianlıq tarixindəki yerinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

3. Mövcud materiallar süryani dilində olduğu üçün qədim süryani dili və din tarixi üzrə mütəxəssislərin köməyindən istifadə edilmişdir. Eyni zamanda süryani dili və din tarixi üzrə mütəxəssislərlərlə eramızın ilk əsrlərinin başlanğıcında Yerusəlimdən, Suriyadan ilk xristian missionerləri, həvarilərin (apostollar) və həvarilərin şagirdlərinin Albaniyaya getməsi ilə, həmçinin Albaniyada xristianlığın yayılmasında həvari dövrü adlanan birinci mərhələ - həvarilərdən Müqəddəs Faddeyin, Müqəddəs Varfolomeyin və Müqəddəs Faddeyin şagirdi Müqəddəs Yeliseyin adı ilə bağlı olub IV əsrə kimi davam edən siryanipərəst dövrlə baglı qədim süryani mənbələrinin incələnməsi sahəsində gələcəkdə elmi mübadilə edilməsi barədə razılıq əldə edilmişdir.
4. Kitabxanadan V əsr tarixini təsvir edən suriya xronikaçısı və Süryani kilsəsinə mənsub olan Zaxariya Mitilenlinin 12 cildıik "Suriya xronikası "əsərinin 1899-cu ildə ingilis dilinə tərcümə edilmiş variantı əldə edilmişdir.Yunanca yazan müəllif Kilsə tarixinə həsr olunan əsərinin 431-491-ci illəri əhatə edən hissələrini – iki cildini süryani dilinə tərcümə etmişdir. VI əsrin sonu-VII əsrin başlarında qələmə alınan X cild Britaniya Muzeyində qorunmaqdadır. Bu əsərin incələnərək Albaniyada xristianlığın yayılmasının birinci mərhələsi olan siryanipərəst dövrlə baglı materialların incələnməsi sahəsində elmi mübadilələr başlanmışdır.

5. Kitabxana çalışmalarında həmçinin Suriya missionerlərinin Albaniya ərazisindəki fəaliyyətinə dair materialların üzə cıxarılması istiqamətində iş aparılmışdır. Məlumdur ki, Süryani kilsəsinin qızıl dövrü hesab edilən IV-VII əsrlərdə süryani missionerlərinin ən fəal dövrüdür. Məhz bu dövrdə Azərbaycanda da xristianlığın dövlət dininə çevrilməsi və yayılması mərhələsidir. Missionerlik fəaliiyətlərini bir sıra xalqlar, o cümlədən albanlar arasında da təblig edərək yaymışlar. Lakin 451-ci ildə xristinalığın parçalanması və belə vəziyyətin Süryani əleyhinə dəyişməsi tədricən süryani kilsəsinin nüfuzunu da zəiflətmişdir. Bu baxımdan Albaniyada da xristianlığın yayılmasının ilkin mərhələsi olan Suryani (serofil) dövrünü yunan (qrekofil) dövrü əvəz etmişdir. Kitabxana çalışmalarında əsasən Şərq süryanilərinin Azərbaycandakı

missionerlik fəaliyyəti ilə baglı materiallar araşdırılmışdır.

6. Ezamiyyət müddətində Mardin bölgəsindəki Şərq xristianlığının III-V əsrə aid edilən ən qədim kilsələri və monastırlarına – Yuxarı Mesopotamiya sərhədləri içərisində olub Mardin bölgəsinin 3 km-liyində yerləşən V əsrə aid Deyrulzafaran monastırına, həmçinin Deyrulzafaran monastırının monastırın üstündəki təpələrdə yerləşən və daha qədim tarixə malik olub eramızın 326-cı ilinə aid edilən Məryəm Ana, eraməzın I və ya II əsrinə aid edilən Mor Yaqub (Suruçlu Mor Yakub), IV əsrin əvvəllərində inşa edilmiş Mor Hzozoyel monastırı, Mor Behnam kimi qayalıqlarda inşa edilmiş qədim monastır qalıqlarına da baxış keçiriımişdir. Mor Behnam monastırı qayaların içerisinin ovularaq inça edildiyi üçün Kaya monastırı adı ilə də bilinir. Həmçinin tarixi Mosapotamiyanın böyük şəhəri olan Nüsaybin ərazisində Giremeli kəndi yaxınlığındakı Mor Augün monastırına, Tur-Abdin bölgəsindəki Mor Yaqub kilsəsinə, Mardin yaxınlığındakı Eski Kale (Kalitmara) kəndindəki Mor Cercis kilsəsinə, Məryəm Ana kilsəsinə, Midyat bölgəsindəöki Mor Gabriel kilsələrinə də səfər edilmişdir. Qeyd etmək lazımdır ki, III əsərə aid edilən Mor Evgin monastırı süryanilər üçün ikinçi Qüds kimi qəbul edilməkdədir. Mor Evgin (72 nəfərdən ibarət şərq müjdəçilərinin başçısı) olmuş və 72 müjdəşidən 11 məhz bu monastr ərazisində dəfn edilmişdir. Süryanilər üçün çox mühüm bir məbəd olan bu qədim monastır bögədəki monastırların Anası sayılır. Mor Evginə isə ikinci Mesih unvanı verilmişdir. Qüdsə gedən ziyarət yolu üzerində, həmçinin İpək yolu üzərində yerləşdiyi üçün çox qədim ziyarət yerlərindən sayılır. Tarixən Qüdsə getməden önce buradan bərəkət, xeyir-dua alınıb yola davam edilərmiş. Hazırda da monastırda bu ənənə davam etdirilməkdədir: ziyarətə gələnlərə mütləq çörək və su ikram edilir. Bu qədim monastr hazırda da ortodoks camaaatının ən cox uğradığı yeridir və onlar üçün ikincü Qüds sayılır.

7. Elmi ekspedisiya zamanı Mardinin Nusaybin bölgəsindəki “Dünyanın İlk Vaftizhanesi’ olaraq qəbul edilen, qədim məbəd üzərində inşa edilmiş Mor Yakup kilsəsi və burada aparılan geniş arxeoloji qazıntıların nəticələrinə də baxılmışdır. Ortodoks kilsə olan Mor Yakup kilsəsi Yuxarı Mesopotamiyanın ən qədim kilsələrindən biri olarak qəbul edilir. Bu kilsə bölgənin ilk böyük və xristianlığın ən qədim vəftizxanalarından biri kimi də qəbul edilməkdədir. Bölgədəki arxeoloji qazıntılar nəticəsində Şərqin ən böyük kilsələrindən biri olan, geçmişdə 'Nusaybin Katedrali' olaraq istifadə eilən qədim tikilinin bünövrəsi aşkar edilmişdir. Mor Yakup Kilsəsinin eramızın 320-ci ilində tikilmiş və günümüzədək qorunub qalmış dünyanın ən qədim vaftizxanasının olduğu ve VIII əsrdə kilsəyə çevrildiyi təspit edilmişdir.

Qazıntılar zamanı Roma dövrünə aid materialllar, xüsusilə də üzərində xristianlığa qədərki inancların izlərini daşıyan günəş simvolllarının təsvirləri olan daş piltələr xüsusilə diqqətimizi cəlb etdi. Maraqlıdır ki, eyni təsvirlər Azərbaycanda, xüsusilə də Qəbələ bölgəsinin qədim qəbiristanlıqlarında rast gəlinməkdədir.

8. Ezamiyyət zamanı Mardin'in 30 km-liyində Nüsaybin bölgəsində yerləşən "Dara Antik kenti" adı ilə bilinən tarixi əraziyə də baxılmışdır. Tarixdə Yuxarı Mesopotamyanın ən mühüm yerleşim yerlerinden birisi olan bu antik şəhər 505-ci ildə Şərqi Roma imparatorluğunun şərq sərhədlərini sasanilərə qarşı qorumaq üçün hərbi məqsədlə tikilmiş bir garnizon şəhəri idi. Roma – Sasani müharibəsinin izlərini daşıyan antik şəhərdə həvari Varfolomeyin sümüklərinin basdırıldığı qədim kilsə, saray s. ilə yanaşı qədim dəfnetmə ənənələrinin və qədim inanclar sisteminin izlərini daşıyan Qaya məzarlarının yerləşdiyi Qaya nekropol sahəsi, dolmen və sənduqə tipli qəbir yerləri, ölüləri dirildən peygəmbərin –Ezekielin "ruhlara nəfəs verilməsi və yenidən dirilişin canlandırıldığı səhnələrin olduğu qayalıq ərazi, Mitra kultuna inamın (qayadan gələn tanrı) izlərini daşıyan yenidən doğuş inancı ilə qayaya oyulan məkanlara basdırılmış qəbirlər mövcuddur.

9. Ezamiyyət müddətində Mardin metropoliti və Suryani dini icması ilə görüşlər keçirilmişdir. Süryani Kilisesinin Patriklik mərkəzi olan Mardinin Deyrulzafaran monastırında keçirilən görüş zamanı metropolit Saliba Özmene Azərbaycan tarixi ilə baglı kitablar təqdim edilmiş, Keçmişdən bu günədək Qafqaz Albaniyası Apostol kilsəsinin tarixi ənənələri və bu tarixi ənənələri öz dini ideologiyalarında günümüzədək yaşatmağa çalışan alban tayfalarının varislərindən olan udilərin dini və etnik durumu barədə ətraflı məlumat verilmişdir. Görüş zamanı Alban Apostol kilsəsinin yaranma tarixi, ölkəmizdə xristianlığı ilk yayan həvarilər , Şərqdə xristianlığın ilk kilsələrindən olan və Albaniyadakı kilsələrin anası sayılan Kiş kilsəsi və digər alban kilsələri haqda məlumat verilmiş, Albaniyada V əsrdə süryani dilindən hazırda udi dili vasitəsilə oxuna bilən alban dilinə tərcümə edilməsi və ilk İncil çevirməsinin halhazırda Sn.Katerina monastırında olması barədə ətraflı məlumat verilmişdir. Görüş zamanı Alban Apostol kilsəinin fəaliyyətinin Rusiya imperiyası dövründə Sinodun qərarı ilə ləgv edilməsi ilə alban məbədlərinin tənəzzül mərhələsinin başlanması, yalnız 1991-ci ildən Azərbaycan Respublikasının müstəqilliyini qazandıqdan sonra udilərin Udi-Alban icmasını yaradraq öz köklərini yenidən bərpa etmək imkanı verilməsi, 2006-ci ildə Azərbaycan dövləti tərəfindən Müqəddəs Yelisey kilsəsinin bərpa edilərək Udi icmasına verilməsi ətrafında da söhbət

aparılmışdır. Eyni zamanda Qafqaz Albaniyası Apostol Kilsəsinin yenidən bərpası məsələləri və yolları da müzakirə edilmişdir.

10. Ezamiyyət müddədtində Mardin “Kirklar kilsəsinində” Süryani Ortodoks dini icmasınını nümayəndələrin, Süryani tarixi və dini ilə baglı mütəxəssislərin, həmçinin Mardin Artuklu Üniversitetinin “Süryani Dili ve Edebiyatı” üzrə mütəxəssislərin də iştirak etdiyi elmi tədbir təşkil edilmişdir. Mardin bölgəsi Qədim Şərq tarixi üzrə mütəxəssislərin iştirak etdiyi elmi tədbirlərdə Azərbaycan tarixi, xüsusilə də onun mühüm mərhələsini təşkil edən Qafqaz Albaniyası dövləti haqda, alban tayfalarının qədim dini dünyagörüşləri, həmçinin Albaniyada xristianlığın yayılma dövrü, onun mərhələləri haqda geniş məlumat verilmişdir. Dinləyicilərə Azərbaycan və Qafqazın mədəniyyətinin mühüm bir hissəsini təşkil edən 2000 illik alban mədəniyyəti - din tarixi, müstəqil alban kilsəsinin 1500 illik tarixi və 1500 illik zəngin tarixi-ədəbi ənənələri barədə geniş və ətraflı məlumat verilmişdir.

11. Səfər zamanı bölgədə Qədim Şərq kilsəsinin qədim ənənələrini daşıyan “Müjdə bayramı” ayinində iştirak edilmişdir.

**3) Ukrayna, Kiyev və Xarkov şəhərlərində Səməd Vurgun adına Kiyev şəhər kitabxanası və Ukrayna Mesenatlar Liqası təşkilatlarında Kiyev 18-22 mart 2019-cu ildə, Xarkovda 23-24 mart 2019-cu il tarixlərində ezamiyyət baş tutmuşdur.**

1. Ezamiiyət zamanı layihə mövzusuna dair ezamiyyət müddətində Səməd Vurgun adına Kiyev şəhər kitabxanasında dəyirmi masa təşkil edilmişdir. Dəyirmi masada Səməd Vurgun adına Kiyev şəhər kitabxanasının kollektivi, ziyalılar, tələbələr, və Azərbaycan diasporası, həmçinin Azərbaycan Alban Udi icmasının üzvlərinin və rəhbəri iştirakı etmişdir. Tədbirdə həmçinin Azərbaycanın Ukraynadakı səfirinin köməkçisi Elman Bagırov, professor Arif Quliyev, tarixçi Eldar Tagıyev iştirak etmişdir.Tədbirin əsas mövzusu icraçı Robert Mobilinin təşəbbüsü ilə »Azərbaycan multikulturalizmi və Azərbaycan Alban-Udi Xristian icması» olmuşdur. Ezamiyyət zamanı Ukrayna ziyalıları ilə geniş elmi əlaqələr yaradılmış, Ukraynada Azərbaycan tarixinin təbligi və yeni elmi mübadilələr edilməsi üçün zəmin hazırlanmışdır.

2. Səməd Vurgun adına Kiyev şəhər kitabxanasında keçirilən dəyirmi masada Azərbaycan multikultural mühiti, Azərbaycanda tolerantlıq ənənələri, xüsusilə də Azərbaycanda tolerantlığın modeli kimi udilərin dini-mədəni irsi, tarixi ənənələri, Azərbaycanın qədim dövlətçilk ənənələrində mühüm yeri olan Qafqaz Albaniyasının tarixi, keçmişdən bugünədək qorunub qalan izləri haqda ətraflı məlumat verilmiş, geniş müzakirələr təşkil edilmişdir. İcraçı Robert Mobili dəyirmi masada Azərbaycandakı müxtəlif dini icmaların inkişafının və çiçəklənməsi məhz Azərbaycandakı güclü və yüksək səviyyəli dövlət dəstəyi əsasında baş verməsi haqda məlumat vermişdir. Tədbirdə Ukraynanın mediya nümayəndələri, jurnalistlər və televiziya nümayəndələri, o cümlədən telejurnalist və radio aparıcılar da iştirak etmişdir. Tədbirin sonunda dəyirmi masa iştirakçılarına və Səməd Vurgun adına Kiyev şəhər kitabxanasına Azərbaycan Udi-Alban Xristian icması və Azərbaycan multikulturalizmi ilə baglı kitablar hədiyyə edilmişdir. Tədbirdə Ukraynanın tanınmış elm adamları və elmi mərkəzləri ilə elmi əlaqələrin əsası qoyulmuşdur.
3. Ezamiyyət çərçivəsində həmçinin Xarkovdakı Albaniya konsulluğunda görüş təşkil edilmişdir;

Eyni zamanda Kiyevdə Azərbaycan diasporası ilə görüş və dəyirmi masa təşkil edilmişdir.

4. Ezamiyyət müddətində Ukraynanın Xarkov şəhərinə də səfər edilmişdir. Burada Azərbaycan Udi icmasının nümayəndələri ilə görüş təşkil edilmişdir. 2019-cu il martın 23-də Xarkovdakı "Dostluq" Azərbaycan mədəniyyət mərkəzində Ukraynannın Azərbaycan diasporasının, həmçinin görüşün təşkilatçılarından olaraq Albaniyanın Xarkovdakı konsulu Şahin Ömərovun da iştirakı ilə Alban-Udi xristian icmasının üzvləri ilə görüş təşkil edilmişdir. Tədbirdə həmçinin Xarkov Milli Universitetinin prorektoru professor M.İ. Ömərov, Azırbaycan və udi diasporasının fəallları, ukrayna ziyalıları iştiral edirdi. Təşkil edilmiş görüşün əsas mövzusu «Azərbaycan multikulturalizmi və udilər» olmuşdur. İçraçı Robert Mobili layihə mövzusuna uygun olaraq Azərbaycanda yaşayan bütün etnoslara, o cümlədən udilərin tarixi, keçmişi və bu günü, müasir dövrdə Azərbaycan dövlətinin Azərbaycanda yaşayan bütün etnoslara və

dinlərə, o cümlədən udilərə göstərdiyi qaygıdan və Azərbaycandakı etnoslararası münasibətlərin dünyada multikulturalizm üçün öprnək təşkil edə biləcəyindən, Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin tarixi köklərindən və müasir dövrdə Müstəqil Azərbaycan Respublikası dönəmindəki yüksəliş səviyyəsi barədə ətraflı məlumat vermişdir.

5. Ezamiyyə zamanı multiamedia vasitələrindən, zəngin arxiv materiallarından istifadə edilməklə: «Azərbaycan multikulturalizmi və udilər» mövzusunda video təqdim olunmuşdur.
6. Səməd Vurgun adına Kiyev şəhər kitabxanasında təşkil olunmuş tədbirin əsasında Albaniyanın Xarkovdakı konsulu ilə məhsuldar görüş baş tutmuşdur. Aparılan elmi mübadələlər nəticəsində gələcəkdə beynəlxalq elmi layihələrin hazırlanmasının əsası qoyulmişdur.
7. Tarixi Qafqaz Albaniyası dövləti ilə Balkanalar arasında pararlellər aparılması və bununla baglı elmi şərhlər verilməsi məsələsinə elmi mararq yaradılmışdır.
8. Görüş və elmi mübadələr zamanı Albaniyanın Titana şəhərindəki arxiv materiallarının mənbələrinin incələnməsi sahəsində gələcəkdə elmi mübadilə edilməsi barədə razılıq əldə edilmişdir.
9. Bütün görüşlər və elmi tədbirlər mediyada geniş işıqlandırılmışdır

**7** Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa)

*(burada doldurmalı)*

Layihə üzrə Azərbaycan Respublikasının ilk növbədə Qəbələ, Oğuz bölgələri və onun Nic, Bum, Həzrə, Mirzəbəyli, Dizaqlı, Bunud, Calud kimi bir sıra kəndləri, eyni zamanda İsmayıllı, Şəki, Zaqatala, Qax, Balakən, Quba bölgələrinə elmi ekspedisiyalar təşkil edilmişdir. Elmi Ekspedisiyaların təşkili zamanı çol işindən öncə mövzu ilə baglı tarixi-etnoqarfik ədəbiyyat təhlil edilmiş, iş planı və marşrut müəyyən edilmişdir. Təhlil edilmiş etnoqrafik ədəbiyyat əsasında mövzu üzrə sorgu anketləri hazırlanmışdır Etnoqrafik çöl tədqiqatlarından öncə bütün bölgə incələnmişdir.

Qəbələ, Oğuz, Şəki bölgələrinə elmi ekspedisiyalar çərçivəsində bölgənin Nic, Calud, Dizaqlı, Həzrə, Bum, Kiş kimi bir sıra kəndlərinə etnoqrafik səfərlər təşkil edilmiş, kəndilərin

ərazisində olan qədim alban məbədlərinin katoloqunun hazırlıq mərhələsi həyata keçirilmişdir.

Udilərin kompakt yaşadığı Nic kəndində udilərin qədim dini və məişət bayramları – xaç suyuna salınma, Pasxa, Kala Axsibay, Verbnoe Voskreseniye, dini pəhriz ənənələri, Preobrajeniya, Vərtivər kimi kimi dini ayinlərlərlə zəngin mərasimləri, eyni zamanda udilərin qədim məişət ənənələri, yəxni, hərisə, afara kimi bir sıra qədim ənənələrə malik milli mətbəxi ilə baglı bir müqayisəli araşdırmalar edilmiş və maraqlı elmi nəticələr əldə edilmişdir. Adət ənənə inanclarla baglı kəndin yaşlı əslindən məlumat toplnmış müxtəlif dövrlərdəki dəyişikliklər qeydə alınmışıdr. Məsələn keçmiş ənənələrdən hansılar qorunub qalmış hansılar aradan cıxmışdır. Hər bir mərasim ayininin mahiyyəti,mərasim süfrəsinin hazırlaması müəyyən edilmişdir. Adət-ənənələr, tabular müəyyən edilib

Bölgənin Nic, Dizaxlı, Calud, Bunud, Həzrə, Kiş kimi alban ənənələrinin izlərini daşıyan kəndlərinə təşkil edilən elmi ekspedisiyalar zamanı informatorlarla görüşlər keçirilmiş, layihə icraçıları tərəfindən hazırlanmış suallar toplusu əsasında informatorlardan kəndlərinin tarixi, mövcud rəvayət və əfsanələri, qədim inanc yerləri və ziyarətgahları barədə müsahibələr götürülmüşdür. Yerli informatorlar kənd əhalisinin keçmişdən bəri ziyarət etdikəri Bulun ocaq, “Toyuq piri”, Calud, Komrad kimi qədim alban inanclarının izlərini daşıyan ziyarətgahlar haqda ətraflı məlumatlar vermişlər. Əldə edilmiş məlumatlar bir neçə informator tərəfindən də yenidən sorgular keçirilərək təsdiqlənmişdir.

Elmi ekspedisiyalar zamanı bölgənin udilərin tarixən yayıldığı və udi etnoniminin izlərini daşıyan ərazilərinə - Mirzəbəyli, Calud, Bum, həmçinin Bunud, Oğuz bölgələrinə də etnoqrafik səfərlər edilmişdir. Bu kəndlərin ərazisində qədim alban izlərini daşıyan qəbir abidələri, kilsə qalıqları, xalq arasında alban ənənələri ilə baglı, xüsusilə də Qafqaz Albaniyasında xristianlığın əsasını qoymuş Yeliseylə baglı əfsanə və rəvayətlər toplanmış, qədim inanc yerləri və pirlər tədqiq edilmişdir. Xüsusilə Bum kəndində Müqəddəs Yeliseylə baglı qədim pir və ziyarətgah yeri aşkar edilmiş, XIX-XX əsr arxiv materialları ilə qarşılıqlı müqayisələr aparılaraq Müqəddəs Yeliseyin Albaniyadakı missionerlik mənbələrdə adı çəkilən fəaliyyəti və Albaniyaya ərazisində Yeliseyin qət etdiyi yerlərin hazırda xalqın yaddaşında qalmış izləri üzə çıxarılmış, eyni zamanda qaynaqlarda adı çəkilən bir sıra toponimlərin müasir toponimlərdəki izləri tədqiq edilmişdir.

Qala piri (Kala Gergets), Həzrə piri, Yelsu piri, Kiş məbədi kimi qədim alban ənənələrinin və inanclarının izlərini daşıyan ziyarətgahlara ayrıca elmi ekspedisiyalar təşkil edilmişdir. Qədim kənd qəbiristanlıqlarında və yuxarıda adı çəkilən inanc yerlərində aparılan etnoqrafik araşdırmalar nəticəsində bir çox alban ənənə və ayinlərinin izləri müəyyən edilmişdir.

Bölgənin Bum kəndində yerli əhali arasında Albaniyada xristianlığın əsasını qoymuş Yeliseylə baglı müxtəlif rəvayətlər toplanmışdır. Qafqaz Albaniyasında geniş yayılmış qədim və ümumazərbaycan ənənəsi olan agac kultu ilə baglı pirlər barədə alban müəllifi  Musa Kalankatlı  Qafqaz Albaniyasında "ağaca qurban kəsilərək,  qanının yarpaqlarına çilənib, kəlləsinin və dərisinin isə budaqlardan asılması adətinin olduğunu da yazırdı. Nic kəndində udiərin qədim sitayiş yerdlərindən olan "Toyuq piri»ndə, həmçinin Qəbələ bölgəsindəki Komrad pirində bu ənənə qorunub saxlanmışdır. Ekpedisiya zamanı hər iki ziyarətgahda yerli əhali tərəfindən kəsilən qurbanlıq heyvanın dərisinin, həmçinin ayaqlarının ağacdan asılması ayininin icrası qeydə alınmışdir.

Qəbələ bölgəsində tarixi ənənələrə sadiq qalan yerli əhali, Komrad, Qala piri, Müqəddəs Elisey məbədləri kimi qədim alban  inanc yerlərinə ziyarətlərini davam etdirməkdədirlər. Bölgənin müsəlman əhalisinin Qala piri adlandırdığı  qədim alban məbədini udilər Kala Gergets, yəni böyük kilsə adlandırırlar. Qədim türk dillərində qala böyük, müqəddəs yer anlamındadır. Udilərin bu adlandırması bu alban məbədinin vaxtilə bölgənin əhalisinin ziyarət etdiyi ən böyük kilsəsi olduğunu söyləməyə əsas verir.  Hazırda da etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bölgə əhalisinin  bu qədim alban məbədlərini ziyarət etməsi, burada qurbanlar kəsməsi  islamaqədərki inanclara, xüsusilə Qafqaz Albaniyası xristianlığına aid ənənələrin xalq yaddaşında qalan  izləridir. Maraqlıdır ki, həmin məbədlər bölgənin həm xristian əhalisi udilər,həm də müsəlman əhali üçün  müqəddəs yer sayılmaqdadır. Hətta Udilər xristian olmalarına baxmayaraq, demək olar ki, bütün dini bayramlarında, məsələn, Kala Axsibay  (böyük bayram) adlandırdıqları Pasxanın ilk günündə  Yelisey kilsəsi adlandırdıqları Cotari kilsəsində, həmçinin Kala Qerqets (Oğuz r.), Komrad piri(Qəbələ r.  Dizaxlı k.), Calud (Qəbələ r.) kimi qədim alban məbədinin izlərini daşıyan ziyarətgahlarda  xristian olmaqlarına baxmayaraq qurban kəsərdilər. Belə qurbangahlardan biri hazırda da Cotari kilsəsinin həyətində  qalmaqdadır. Yerli sakinlər bu gün də istər dini bayramalrında, istərsə məişət ənənələri ilə baglı mərasimlərində bu daşın üzərində qoyun qurban kəsirlər.

Elmi ekspedisiyalar zamanı Qəbələnin Dizaqlı kəndi yaxınlığında Komrad dagında yerləşən və  qədim alban məbədinin qalıqlarının olduğu Komrad pirinə də xüsusi etnoqrafik səfərlər təşkil edilmişdir. Səfər zamanı bu qədim alban mənşəli inanc yerində bir sıra spesifik ayinlər qeydə alınaraq mənbələrlə  analoji təhlillər aparılmış, yerli əhali ərasinda hazırda da riayət olunan bir sıra alban ənənələrinin izləri  müşahidə edilmişdir.  Eyni zamanda müəyyən edilmişdir ki, Komrad təkçə udilərin deyil, bütün Qəbələ bölgəsinin inanc yeri olmaqla yanaşı,

hətta Quba bölgəsində məskun olan və albanların birbaşa varislərindən sayılan xınalıqların da ən çox getdikləri ziyarətgahdır. Ümumiyyətlə, alban tayfalarından olan xınalıqların udilərlə olduqca cox öxşar etnik xüsusiyyətləri vardır. Maraqlıdıır ki, hazırda xanalıqlar arasında yaygın olan çox qədim bir türk ənənənsi - oğlan uşaqlarının nəzərdən qorunması üçün saclarının ortasında bir hissənin 7 yaşınadək uzadılması və bu saçın məhz Komrad pirində kəsilməsi ənənəsi son zamanlaradək udilərdə mövcud olmuşdur.

Quba bölgəsinə təşkil edilmiş elmi ekspedisiya zamanı bölgədə məskun olan Xınalıq, Qrız, Buduq, Hapıt kəndlərində yaşayan eyni adlı etnosların da alban mənşəyi müəyyən edilməklə yanaşı onların Qəbələ bölgəsi əhalisi ilə etnogenetik bagları üzə çıxarılmışdır. Xınalıq, qrız, hapıtların xüsusilə udilərlə bir çox öxşar etnoqrafik xüsusiyyətləri aşkar edilmişdir.

Iayihədə nəzərdə tutulan bölgələrə, o cümlədən Qəbələ, Oğuz, İsmayıllı, Şəki, Quba bölgələrinə təşkil edilmiş elmi-etnoqrafik ekspedisiyalar nəticəsində bu ərazilərdə çöl tədqiqatları zamanı toplanmış etnoqrafik və eləcə də folklor materialları əsasında udilərin maddi və mənəvi mədəniyyətinin, həmçinin məişətinin spesifik xüsusiyyətləri də müəyyən edilmişdir. Udi etnosuna xas olan yerli kultlar və pirlər müəyyən edilib Günəş Ay kultu ilə baglı spesifik inamları və deyimləri, atalar sözləri, nagıllar, rəvayətlər toplanmışdır. Nic kəndinində yaşayan udilər həftənin bazar gününü gününü qədim təqvimlərdə olduğu kimi Günəş günü adlandırır, hətta kilsədəki xaç suyunu da Günəşin əlaməti - «qızıl su», və ya «nur suyu» adlandırırlar. Udilər yayın qızmar çağında Günəşin şərəfinə Vərtivər bayramını keçirirlər. Bu bayram haqqında məlumata Musa Kalankatlının «Alban tarixi» əsərində rast gəlinir. Qəbələ bölgəsində yerli əhalinin məişət ənənələrində Günəş kultu ilə baglı qədim alban ənənələrinin izləri bölgənin Komrad piri yaxınlığındakı qədim qəbir abidələrində, həmçinin Həzrə kəndi yaxınlığındakı qədim qəbirstanlıqdakı günəş təsvirli qədim qəbir abidələrində də qalmaqdadır.

Etnoqrafik çol tədqiqatları zamanı udilərin kompakt yaşadığı Nic kəndində Udi ənənəvi yaşayış yerləri və qədim kilsə yerlərinə ayrıca baxış keçirilmiş, Göyün, Tosik (Kilsətəpə), Silin, Bulun kimi qədim kilsələrin tarixi, burada mövcud olmuş daha qədim ibadətgah yerlərinin olması barədə yerli əhalidən xeyli informasiya toplanmışdır. Etnoqrafik tədqiqatlar zamanı informatorlarla müsahibələr zamanı məlum olmuşdur ki, Alban xristian ənənələrini öz məişətlərində qoruyub saxlamağa çalışan Nic udiləri kökü qədim Albaniyaya qədər uzanan Ay kultu, Günəş kultu kimi qədim alban inanclarını da xristian ənənələrində yaşatmaqdadırlar. Bu gün də udilər Aya dua edir, Xaş axçin, yəni «Ay haqqı» deyərək Aya and içir, vəfat etmiş adam haqqında Buxajuğun xaş kanbi yəni «Allah onu Ay eləsin» ifadəsini işlədirlər.

2018-ci ilin yanvar ayında təşkil olunan elmi ekspedisiya zamanı Nic udilərinin İsa Məsihin Movlud bayramı ərəfəsində icra etdikləri 40 günlük pəhriz mərasimi və yanvarın 7-də Milad bayramı mərasimi qeydə alınmışdır. Udilərin Cotari Alban-Udi kilsəsində keçirilən İsa Məsihin Mövludu dini bayram mərasimi ilə bağlı bir sıra məişət ənənələri həmçinin spesifik dini mərasim ayinlərini və milli mərasim yeməklərinin spesifikası qeydə alınmışdır. Etnoqarfik müşahidələr informatorlardan alınan müsahibələr və fotolar vasitəsilə sənədləşdirilmişdir.

Elmi ekspedisiya zamanı ilk nğvbədə Azərbaycanda kompakt halda Qəbələ rayonunun Nic kəndində **və Oğuz rayonunda yaşayan** udilərin udilərin tarixi-etnoqrafik tədqiqi və yayılma arealının müəyyən ediilməsi və mənəvi mədəniyyətimizin multikultural ənənələrinin tarixi köklərinin üzə çıxarılması üçün Qəbələ -Oguz-İsmayıllı bölgələrinə etnoqrfik səfərlər təşkil edilmişdir. Səfər zamanı qədim alban tayfalarının genetik izlərinin araşdırlması üçün İsmayıllı rayonunun qədim alban tayfalarından olan hapıtların məskun olduğu Molla İshaqlı, Hacıhətəmli kəndlərinə, həmçinin Qalacıq, İstisu kəndlərinə etnoqrfik səfərlər edilmişdir. Etnoqrafik səfərlər zamanı :

1. İlk öncə mövzu ilə bağlı tarixi-etnoqarfik ədəbiyyat təhlil edilmiş, mövcud material əsasında mövzu üzrə sorgu anketləri hazırlanmışdır. Bölgələrin elmi-nəzəri tədqiqindən sonra ilk ğncə udilərin kompakt məskun olduğu Qəbələ bölgəsi, Nic kəndinə, tarixən etnosun yayıldığı ərazilərdən bölgənin Mirzəbəyli, Calud, Bum kəndlərinə, həmçinin Bunud, Həzrə, Oğuz və Şəki rayonlarına elmi ekspedisiyalar üzrə iş planı və marşrut müəyyən edilərək bütün bölgə incələnmişdir. Təşkil edilmiş çöl etnoqrafik səfərləri zamanı əldə edilmiş məlumatlar informatorlar tərəfindən yenidən təkrar sorgular keçirilərək təsdiqlənmişdir.

2. Adət - ənənələr və inanclarla baglı kəndin yaşlı nəslindən məlumatlar toplanmış, müxtəlif dövrlərdəki arxaik dəyişikliklər qeydə alınmışıdr. Məsələn, keçmiş ənənələrdən hansıların qorunub qaldığı, hansıların isə aradan cıxdığı sorgu anketləri vasitəsilə müəyyən edilmişdir. Udi mətbəxi, bayramları, toy mərasim ayinləri ilə bağlı bir sıra yeni məlumatlar, həmçinin yaşlı nəslin yaddaşlarıda qorununb qalmış ayinlər, eynizamnda toy mərasimləri ilə bağlı fotoşəkillər əldə edilmişdir. Hər bir mərasim ayininin mahiyyəti,mərasim süfrəsinin hazırlanması ənənəsi və s. müəyyən edilmişdir. Tədqiq olunan kəndlərdə xalq arasında qorununb qalmış adət-ənənələr, tabular, pir yerləri, xalq inancları müəyyən edilib. Kəndlərdə yaşlı nəsil arasında qorununb qalmış əfsanələr toplanmışdır. Eyni zamanda kəndlərdə qədim alban məbədlərinin qalıq yerləri müəyyən edilmiş, alban məbədlərin

siyahıya alınması həyata keçirilmişdir

3. Udilərin xalq inanclari və folklor ənənələri, rəvayət və əfsanələrinin toplanmış, qədim inanc yerləri, pir və ziyarətgahları tədqiq edilmişdir.

4. Udilərin tarixən məskun olduğu kəndlərdə udilərin etnik tarixi, etnik ənənələri, mənşəyi, etnoqenetik əlaqələri, adət-ənənələri, mərasim ayinləri, xalq inanclarının etnoqrafik çöl mateialları əsasında araşdırılması, həmçinin XIX əsrdə udi etnosu və udi kəndləri, qədim alban-udi ənənələrinin qalıqlarının müəyyən edilməsi barədə məlumatlar toplanması işi davam etdirilmişdir.

5. Etnoqrafik çöl materialları əsasında həmçinin udilərin patronomiya, təsərrüfat və məişət ənənələri təhlil edilmişdir.

6. Çöl tədqiqatları zamanı Qafqaz Albaniyasında fəaliyyət göstərən ilk xristian missionerlərindən olan və Alban Apostol kilsəsinin əsasını qoyan Yelisey və onun tələbələrinin təqib edilərək öldürüldüyü ərazilər toponimlər, həmçinin mənbələr və arxiv materiallları əsasında müəyyən edilmişdir.

7. Araşdırmalar nəticəsində Alban kilsəsinin əsasını qoyan `Müqəddəs Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlərin, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan Yeliseyin öldürüldüyü ərazi - mənbələrdə adı çəkilən Zərquni, Qomenk (Homenk) toponimlərinin lokalizasiyası, etnoqrafik ekpedisiyalarımız, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə müəyyən edilmişdir.

8. Etnoqrafik çöl tədqiqatları zamanı həmçinin əhali arasında Yeliseylə baglı yaşayan əfsanələr, folklor nümunələri toplanmış, inanc yerləri, mərasim ayinləri haqqında yeni məlumatlar əldə edilmişdir.

9. Mövcud arxiv materialları ilə yerli əhali arasıpnda toplanmış məlumatların qarşılıqlı müqayisəsi nəticəsində alban xristian ənənələrini qoruyub saxlamış udilərin xristian müqəddəslər arasında Yeliseyi daha çox müqəddələşdirməsinin səbəbləri müəyyən edilmiş, Oguz, Nic və Komrat ziyarətgahlarının udi inanclarında yeri və Müqəddəs Yeliseyin

| | |
|---|---|
| | Albaniyada xristianlığı yaymasının ilkin mərhələsi ilə birbaşa baglılığının tarixi kökləri müəyyən edilib. Müqəddəs Yelisey məbədi Kala Gerges (Oguz), Cotari (Qəbələ r.Nic), Gömrat ( Qəbələ r. Dizaqlı k.), Yelsu piri (Qəbələ r.Bum k.) kimi qədim alban inanclarının izlərini daşıyan ziyarətgahların birbaşa Yeliseyin Albaniyaya gəlişi ilə baglı olması və udilər arasında xüsusi nüfuzu olmasının səbəbləri müəyyən edilmişdir. |
| **8** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| **9** | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(burada doldurmalı)*<br>1. Məhəbbət Paşayeva və Robert Mobili “Udilər keçmişdə və bu gün” Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunda Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyinə həsr edilən “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr” mövzusunda Beynəlxalq Elmi Konfransda çıxış 23-24 may 2018<br>2. Məhəbbət Paşayeva “İlk xristian missionerlərinin Albaniyada fəaliyyəti” Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Qafqazın kilsələri” mövzusunda “ keçirilən dəyirmi masada məruzəçi 13 iyun 2018<br>3. Ülviyyə Hacıyeva “Святые реликвии и культы Албанской Апостольской церкви” Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Qafqazın kilsələri” mövzusunda “ keçirilən dəyirmi masada məruzəçi 13 iyun 2018<br>4. Robert Mobili “Alban Apostol kilsəsi: Tarix və Müasirlik” Bakı Beynəlxalq Multikulturalizm |

Mərkəzində “Qafqazın kilsələri” mövzusunda “ keçirilən dəyirmi masada məruzəçi 13 iyun 2018

5. Məhəbbət Paşayeva Qəbələ şəhər Heydər Əliyev Mərkəzində “Cümhuriyyət dövründə multikulturalizm və dini etiqad azadlığı” həsr olunmuş dəyirmi masada “Cümhuriyyət parlamentində multikulturalizm” mövzusunda çıxış 21 iyun 2018

6. Robert Mobili Qəbələ şəhər Heydər Əliyev Mərkəzində “Cümhuriyyət dövründə multikulturalizm və dini etiqad azadlığı” həsr olunmuş dəyirmi masada “Cümhuriyyət hökumətində din və dini etiqad azadlığı” mövzusunda çıxış 21 iyun 2018

7. Robert Mobili 04 iyul 2018-ci il “Azərbaycanın multikultural modeli” mövzusunda Azərbaycan tarix muzeyində seminar 04 iyul 2018-ci il

8. Robert Mobili Almaniyanın Aysburq şəhərində “Azərbaycan multikulturalizmi” nə həsr olunmuş dəyirmi masada “Udilər və Azərbaycan multikulturalizmi” mövzusunda çıxış 02-04 may 2018

9. Robert Mobili Azərbaycan dini liderlərinin ABŞ-da Los Anjeles, San Fransisko, Kaliforniyada təşkil edilmiş dəyitmi masada iştirak 13-20 may, 2018-ci il.

10. Пашаева М.Т., Мобили Р.Б. УДИНЫ» 27-30 мая 2018 г. Минск (Республика Беларусь).
XXIV Международные Кирилло-Мефодиевские Чтения «Христианство как интегрирующий фактор мировой культуры». 27-30 мая 2018 г. Минск (Республика Беларусь)

11. M. Paşayeva “Azərbaycanda tolerantlıq və multikulturalizm dəyərlərinin yaşayan nümunəsi-udilər”. Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar” elmi sessiyanın materialları. Bakı, 2018 07 fevral . s. 92-93

12. Məhəbbət Paşayeva. Qəbələ bölgəsində qədim alban ənənələrinin izləri. Qəbələ arxeologiyası. Beynəlxalq Elmi Seminar. Bakı, CBS, 21-23 oktyabr, 2017

13. Məhəbbət Paşayeva. 1836-cı ildə Alban kilsəsinin ləgvindən sonra udilərin dini və etnik durumu. Arif Abbasovun 80 illiyinə həsr olunmuş Elmi sessiya. Bakı, 27 dekabr 2017

**10** Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları

*(burada doldurmalı)*

**11** Yerli həmkarlarla əlaqələr

*(burada doldurmalı)*

Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən təşkil olunan dəyirmi masa və digər elmi tədbirlərdə layihə mövzusu ilə baglı çıxışlar edilmiş, Qafqaz Albaniyasının əhalisi, inancları, həmçinin udi etnosunun tarixi keçmişi və bu günü ilə baglı mühazirələr oxunmuş, diskussiyalar aparılmışdır

1.Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi

2. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu

3. Azərbaycan Bibliya Cəmiyyəti

4. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

**12** Xarici həmkarlarla əlaqələr

*(burada doldurmalı)*

Layihənin icrası müddətində bir sıra xarici həmkarlarla əlaqələr qurulmuş, Norveç, İtaliya,Türkiyə, İsvec kimi bir sıra ölkələrin alimləri ilə Qədim Şərq kilsələrinin tarixi

ənənələri və xüsusilə də Alban Apostol kilsəsinin qədim Şərq tarixindəki yeri və rolu ilə əlaqədar elmi diskusiyalar və müzakirələr təşkil edilmişdir. Qədim Şərq ortodoks kilsələrinin Alban Apostol kilsəsi ilə tarixi əlaqələri, o cümlədən Alban Apostol kilsəsinin tarixi, keçmiş ənənələri, kilsə qanunları, mərasim və ayinlərinin öyrənilməsi və bərpası məsələri ilə baglı elmi mübadilələr aparılmışdır. Xüsusilə də, Albaniyada xristinalığı ilk yayan apostollar-Varfolomey, Faddey və onun şagirdi Yeliseyle baglı, həmçinin Alban Apostol kilsəsinin yepiskopları barədə Qədim Şərqin kilsə və monastrlarda qorunub qalmış mənbələrdəki məlumatların əldə edilməsi və tərcümə edilməsi istiqamətində işlərin görülməsib üçün elmi əlaqələr qurulmuşdur. Aşagıdakı xarici həmkarlarla əalqələr qurulmuşdur

1. Bion Veggi- Oslo Universitetinin professoru, Norveçin Yazıçılar Birliyinin üzvü
2. Saliba Özmen- Türkiyə Diyarbakır və Mardin metropoliti
3. Gabriyel Akyüz –Türkiyə Mardin Kirklar kilsesi Hori Episkopos, qədim suriya (süryani) mənbələri üzrə mütəxəssis
4. Federiko De Renzi İtaliya Roma Pontificia Salesiana Universiteti, **türkoloq,** Senior Analyst
5. Anders Blaberq İsvec Bibliya Cəmiyyətinin Baş Katibi
6. Neal Williams Country Director Norwegian Humanitarian Enterprise (NHE)
7. Jost Gippert -alman dilçi qafqazşünas alim, Höte Universitetinin professoru Frankfurt,Almaniya
8. Bernar Utye -fransız dilçi qafqazşünas alim, dilçilk kafedrasının professoru, Paris, Fransa
9. Jill Otye -fransız dilçi qafqazşünas alim, QAfqaz dilləri və folologiyası şöbəsinin rəhbəri ( Ecole Pratique des Hautes Etudes, Paris)

| | |
|---|---|
| **13** | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(burada doldurmalı)* |
| **14** | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |
| **15** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa) |
| | *(burada doldurmalı)* |

| | |
|---|---|
| | |
| 1<br>6 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir) |

*(burada doldurmalı)*

1. Məhəbbət Paşayeva Milli Azərbaycan Tarixi Muzeyində "Tariximizi öyrənək və öyrədək" Gənclər Klubu və "Gənc Muzeyşünaslar və Muzeysevərlər" Klubunun üzvlərinə "Qafqaz Albaniyasının əhalisi" mövzusunda mühazirə

http://kulturaplus.az/…/qafqaz-albaniyasinin-ehalisi-biz-n…/

http://bilikfondu.gov.az/1/pages/5/category/14/news/1243

http://kulturaplus.az/home.php/izuchaem-kavkazskuyu-albaniyu-v-natsional-nom-muzee-istorii-azerbajdzhana/

www.udi.az

2. Məhəbbət Paşayeva "Cümhuriyyət parlamentində multikulturalizm", Robert Mobili "Cümhuriyyət hökumətində din və dini etiqad azadlığı"Qəbələ şəhər Heydər Əliyev Mərkəzində "Cümhuriyyət dövründə multikulturalizm və dini etiqad azadlığı" mövzusunda "dəyirmi masa" da mühazirə

https://azertag.az/xeber/Qebelede_Cumhuriyyet_dovrunde_multikulturalizm_ve_dini_etiqad_azadligi_movzusunda_tedbir_olub-1173700

3. Məhəbbət Paşayeva "İlk xristian missionerlərinin Albaniyada fəaliyyəti", Robert Mobili "Alban Apostol kilsəsi: Tarix və Müasirlik" Ülviyyə Hacıyeva "Святые реликвии и культы Албанской Апостольской церкви.Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində "Qafqazın kilsələri" mövzusunda "dəyirmi masa"
https://azertag.az/xeber/Baki_Beynelxalq_Multikulturalizm_Merkezinde_Qafqazin_kilseleri_movzusunda_deyirmi_masa_kechirilib-1172289

4. Ülviyyə Hacıyeva"VIII-XIX əsr Alban etno-mədəni irsi yerli mənbələrdə. Qafqaz Albaniyası Azərbaycanın mədəni-tarixi irsi kimi" mövzusunda elmi-praktik konfrans. Qəbələ,Nic. **2018-11-13**
Məhəbbət Paşayeva"Azərbaycanda alban tayfalarının etnik ənənələri" "Qafqaz Albaniyası Azərbaycanın mədəni-tarixi irsi kimi" mövzusunda elmi-praktik konfrans. Qəbələ,Nic. **2018-11-13**

http://www.qebele-ih.gov.az/news/1404.html

5. 19 dekabr 2018-çi il. Məhəbbət Paşayeva, Robert Mobili «Multikulturalizm« verilişində çıxış Video, AzTV, http://udi.az/news/0458.html

6. 12 dekabr 2018 il Robert Mobili Alban -udi xristian icması və Azərbaycan multikulturalizminə həsr olunmuş çıxış («Албано-удинская христианская община и Азербайджанский Мультикультурализм».) Ukrayna Kiyev

7. Qafqazda Alban kilsəsinin bərpası ssenarisi Media.Az

http://udi.az/articles/0450.html

8. Norvecin Azərbaycandakı səfiri ilə Nic kəndində görüş

http://udi.az/news/0448.html

9. 28 noyabr 2018 -ci il Robert Mobili Dinlərarası harmoniya və Az-n multikulturalizmi modeli mövzusunda dəyirmi masada iştirak BakıBeynəlxalq Multikulturalizm Mərkəzi http://udi.az/news/0455.html

10. Robert Mobili ictimai Televiziya"Din və Cəmiyyət" verilişində iştirak

http://udi.az/video/0454.html

11. 15 dekabr 2018-ci il Robert Mobili Azərbaycanda xristinalığın tarixinə həsr olunmuş televiziya verilişində çıxış . Эфир телепрограммы ТВЦ, Ведущий протоиерей Алексий Уминский

http://udi.az/page/2

*udi.az/2018/12*

11. https://newsblaze.com/usnews/national/azerbaijan-gives-los-angeles-lesson-religion-humanity_131541/

12 https://www.jpost.com/Blogs/Think-With-Me/Azerbaijan-Celebrates-Israel-Independence-Day-in-Los-Angeles-556548

13 Robert Mobili Azərbaycanın multikultural modeli" mövzusunda seminar

http://udi.az/news/0398.html KULTURAPLUS TV

14. http://www.mobili.az/video/0263.html

15. http://www.azhistorymuseum.az/index.php?mod=5&id=2536

16. AZTV "Multikulturalizm" verilişi 7-ci buraxılış, 19 dekabr 2018-çi il
Video, http://udi.az/news/0458.html

17. http://multikulturalizm.gov.az/post/730/qafqaz-albaniyasi-azerbaycanin-tarixi-medeni-irsidir.html
https://m.salamnews.org/ru/news/read/341874. Киев, 19 марта 2019г. Библиотека имени Самеда Вургуна. Salam News
Марина Гончарук https://yenicag.ru/v-kievskoy-biblioteke-imeni-s-vurguna/
Марина Гончарук http://diaspor.info/.../3856-v-kieve-sostoyalas-vstrecha...
https://www.facebook.com/robert.mobili?__tn__=%2CdlC-R-R&eid=ARBCO-B8H_SoIGWhbcrBXYmcl3MAErIWJU9nvw-O

https://newsblaze.com/usnews/national/azerbaijan-gives-los-angeles-lesson-religion-humanity_131541/

https://www.jpost.com/Blogs/Think-With-Me/Azerbaijan-Celebrates-Israel-Independence-Day-in-Los-Angeles-556548

http://udi.az/news/0398.html
KULTURAPLUS TV

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

________________
*(imza)*
" __" ________ 2019-cu il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Paşayeva Məhəbbət Tofiq qızı**

_________________
*(imza)*
" __" ________ 2019-cu il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

# ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi**
**çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat**
**proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsinin tarixi-etnoqrafik tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Paşayeva Məhəbbət Tofiq qızı**
Qrantın məbləği: **70 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/54/5-M-30**
Müqavilənin imzalanma tarixi: **29 mart 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2017-ci il – 01 aprel 2019-cu il**

### Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(burada doldurmalı)*<br><br>1. Respublika kitabxanaları, arxiv və fond materiallarının araşdırılması nəticəsində Qafqaz Albaniyası və onun əhalisi, Alban tayfa İttifaqına daxil olan etnoslar, o cümlədən, udi tayfaları haqqında antik və orta əsr müəlliflərinin əsərlərinin elektron kataloqu hazırlanmışdır. Alban Apostol Kilsə tarixi və kilsə qanunlarına dair, XIX əsrdə Rusiya imperiyası tərəfindən kilsənin ləgvi ilə baglı materilların olduğu arxiv sənədləri əldə edilmişdir. Eyni zamanda İncilin udi dilinin Oguz (keçmiş Vartaşen) dialektində tərcüməsi, |

Musa Kalankatlının “Albaniya tarixi” əsərinin ingilis dilinə ilk tərcuməsi (Dovset, 1861), Alban Apostol kilsəsi haqda ən qədim məlumatları vermiş Zaxari Ritorinin “Suriya xronikası” əsərinin 1899-cu ildə ingilis dilinə tərcümə olunmuş variantı (Thesyrıac Chronıcle Known as that of Zacharıah of Mıtylene. London 1899) kimi Qafqaz Albaniyası və əhalisi ilə baglı tədqiqatların yeni istiqamətdə aparılmasına kömək göstərəcək materiallar da əldə edilib elektron kataloqa daxil edilmişdir.

2. Mövcud mənbələr, tarixi-etnoqrafik və arxeoloji materiallar və elmi ekspedisiyalardan əldə olunan toponimik və etnoqrafik materialların qarşılıqlı müqayisəli təhlil nəticəsində udilərin etno-mədəni irsinin öyrənilməsi istiqamətində udilərin dini dünyagörüşlərinin iki istiqaməti - klassik ideologiya və ibtidai dünyagörüşləri ilə bagli inanclar müəyyən edilmişdir. Hazırda udilər arasında mövcud olan xristianlıq ənənələrinin tərkibində Qafqaz Albaniyası dövrünə aid bütpərəst inancların izlərini daşıyan sinkretik inamlar üzə çıxarılmış, əhalinin məişət və dini ənənələrində daha çox alban dövründən qalma ibtidai inancların qorunub qalmasının tarixi kökləri müəyyən edilmişdir. Bu aspektdə araşdırma bütövlükdə alban etnosunun bütün tarixi mərhələlərdə etnik xüsusiyyətlərini müəyyən etməyə imkan vemişdir.

3. Tarixi müqayisə metodu ilə udilərin məişət ənənələrinin bütövlükdə Azərbaycan əhalisinin məişət ənənələri ilə ortaq və spesifik xüsusiyyətləri, səbəbləri və mahiyyəti müəyyən edilmiş, elmi ekspedisiyalar zamanı qeydə alınmış bir sıra ayin mərasimlərində alban ənənələrinin izləri müəyyən olunmuşdur. Bu ayinlərin təkçə udilərin deyil, bütün Qəbələ bölgəsinin inanc yeri olmaqla yanaşı, hətta albanların birbaşa varislərindən sayılan xınalıq, ingiloy və digərlərinin da sitayiş yeri olduğu müəyyən edilməklə alban mənşəli etnosların öxşar etnik xüsusiyyətləri təsbit edilmişdir. Bütövlükdə Azərbaycan əhalisinin alban köklərinin izləri və alban tayfalarının ortaq ənənələri ümumiləşdirilməsilə tarixi- genetik müqayisə metodu ilə Azərbaycan –udi etnogenetik əlaqələri və ümumalban ənənələrinin vahid kökləri üzə çıxarılmışdır.
4. Alban Apostol kilsəsinin tarixi keçmişi, Qafqaz Albaniyasında xristianlığın yayılması ərəfəsində xristianlığın təbliği edən Apostolların Qafqaz Albaniyasındakı missionerlik fəaliyyəti ilə bagli bir sıra yeni elmi məlumatlar üzə çıxarılmış, mənbələr və arxiv materiallları, həmçinin çöl etnoqrafik ekspedisiyalarının nəticələri əsasında Qafqaz Albaniyasında xristianlığı təbliğ edən ilk missionerlərin fəaliyyəti, onların Yerusəlimdən Albaniyaya uzanan yol xəritəsi, hərəkət marşrutu müəyyən edilmişdir.

5. Qafqaz Albaniyası ərazisində ciddi təqiblərə məruz qalan İlk xristian missionerləri, apostolların Qafqaz Albaniyasındakı fəaliyyəti, xüsusilə də Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin və onun tələbələrinin öldürüldüyü ərazilər ilk dəfə olaraq mənbələr, arxiv materiallları və etnoqrafik çöl materiallarının qarşılaşdırılması əsasında müəyyən edilmişdir. Araşdırmalar nəticəsində Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan onun öldürüldüyü ərazi - mənbələrdə adı çəkilən Zərquni, Qomenk (Homenk) toponimlərinin lokalizasiyası, etnoqrafik

ekpedisiyalarımız, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə müəyyən edilmişdir.

6. Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin udilər arasında müqəddəsləşdirilməsinin səbəbləri müəyyən edilmiş, yerli əhali arasında Yeliseylə baglı əfsanələr toplanmış, inanc yerləri qeydə alınmışdır. Hazırda Şəki rayonunun Kiş kəndində, Oguzda, Qəbələnin Nic kəndində, eyni zamanda Dizaqlı kəndi yaxınlığında Komrad dagında mövcud olmuş V əsrə aid alban kilsəsinin udilər arasında Yeliseylə baglı olması və bu alban kilsələrinin müqəddəs Yeliseyin şərəfinə adlandırılmasıınn səbəbləri və tarixi kökləri müəyyənləşdirilmişdir. Hazırda bu qədim alban məbədlərinin hər biri, o cümlədən Yeliseyin əsasını qoydugu Kiş məbədinin inancından asılı olmayaraq bütün azərbaycanlıların pir kimi ziyarət etməsi xalqın öz alban köklərini unutmadığı üzə çıxarılmışdır.

7. Etnoqrafik ekpedisiyalar zamanı əldə edilmiş materiallar-qədim alban izlərini daşıyan qəbir abidələri, kilsə qalıqları, xalqın yaddaşında qorunub qalmış alban ənənələri və inancları, həmçinin mövcud mənbələr və arxeoloji materialların qarşılaşdırılması yolu ilə Albaniyada ilk kilsənin əsasını qoymuş Müqəddəs Yeliseylə baglı qədim pir və ziyarətgah yeri aşkar edilmiş, yerli toponimlərin tədqiqi nəticəsində Yeliseyin Yerusəlimdən Kiş kəndinə qədər olan yol xəritəsi müəyyən edilmiş, mənbələr, XIX-XX əsrə aid arxiv materialları və toponimik materialların qarşılaşdırılması yolu ilə Yeliseyin və onun tələbələrinin Albaniyaya ərazisində qət etdiyi yerlər, həmçinin öldürüldükləri ərazilər Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan -mənbələrdə adı çəkilən Zərquni, xüsusilə də Qomenk (Homenk) toponimlərinin lokalizasiyası ilk dəfə olaraq müəyyən edilmişdir.

8. Müqayisəli dil metodu udilərin qədim mərasim ənənələri ilə baglı bir çox ümumalban və azərbaycan arxaik kəlmələrinin tarixi kökləri qarşılıqlı müqayisələrlə təhlil edilərək udi etnosunun ümumazərbaycan mühitində etnomədəni əlaqələrini müəyyən etmək mümkün olmuşdur. Eyni zamanda bir sıra udi ənənələrinin etnik spesifikasının müəyyənləşdirilməsi ilə bütövlükdə alban etnosunun etnik tarixinin bir çox məqamlarının bərpası, Azərbaycan etnoslarının etnogenetik ortaq baglarının üzə cıxarılması mümkün olmuşdur.

9. Mənbələr və arxiv materialları ilə yanaşı etnoqrafik materiallar əsasında da XIX əsrdən etibarən udilərin dini və etnik durumu ilə baglı problemlər, həmçinin XIX əsrin birinci yarısında yaranmış belə vəziyyətdə udilərin assimilyasiyaya məruz qalması, lakin erməni-qriqorian kilsəsinə tabe olmaq istəməyib, etnik identikliyini qoruyub saxlayaraq Azərbaycan tarixinə bağlılığı kimi məsələlər mənbələr və arxiv materiallları ilə yanaşı etnoqrafik materiallar əsasında da qarşılaşdırılaraq təhlil edilmişdir. Udilər iki əsr boyu alban xristian ibadətlərini özünəməxsus şəkildə dini və məişət ənənələrində davam etdirməklə alban kilsəsinə, etiqadlarına sadiq qalmağa çalışmışlar və bunula da öz mədəniyyətini, dilini, dinini, etnik kimliyini və etnik adını günümüzədək qoruyub saxlaya bilmişlər. Xalqın XIX əsrdən etibarən öz etnik

identliyini qoruyub saxlaması və alban xristian ənənələrini davam etdirmək üçün rus pravoslav və erməni qriqoryan kilsəsinə tabe olmamamq üçün apardığı mabarizə ilə baglı Nic kəndinin sakinləri, xüsusilə də kəndin vaxtilə dini ibadətlərinin gizli şəkildə keçirildiyi ev müəyyən edilmiş, kəndin keçmiş keşişinin qohumları olmuş kənd sakinlərindən müsahibələr alınmış, dəyərli elmi etnoqrafik materiallar əldə edilmişdir. Müəyyən edilmişdir ki, udilərin bir qismi , xüsusilə də Nİc udiləri nə qriqoryan, nə də provoslav kilsəsinə getməyi qəbul etməyərək öz xristian ibadətlərini evlərində davam etdirməklə alban xristian ənənələrini qoruyub saxlmağa müvəffəq olmuşlar.

10. Udi etnosunun mədəniyyətində qorunub qalmış qədim dünyagörüşləri və adətlərin qeydə alınması zamanı, vaxtilə, xüsusilə də sovet dövründə unudulmuş və müstəqillik illərində Azərbaycan dövlətinin xalqların mədəni müxtəlifliyinə qaygısı nəticəsində yenidən bərpa edilən və yeni şəraitə uygunlaşdırılmış qədim alban ənənələri təsbit edilmişdir. Bu ənənələr sırasında müasir dövrdə formalaşmış bayramlar, məsələn, Alban Apostol kilsəsinin tarixi ənənələrini yaşadılması üçün yaradılmış Udi - alban xristian icmasının yaradılması, həmçinin Alban Yelisey (Çotari) kilsəsinin bərpa edilməsi, beynəlxalq udi günü kimi yeni bayram mərasimlərinin qeyd edilməsi və bu yeni ənənələri həmin gündə ortodoks kilsə ənənələri ilə vəftiz ayininin icra edilməsi kimi qədim ayinlərlə zənginləşdirilməsi təsbit edilmiş, eyni zamanda bazar günləri kilsəyə gəlmək, İsa Məsihin Mövlud gününün qeyd edilməsi, Mövlud bayramı oncəsi 40 gün pəhriz saxlamaq kimi yenidən bərpa olunan adətlər də təsbit edilmişdir. İcra olunan ayinlərdə ümumi xristian ənənələri mövcud olsa da, udilərin dini ayinlərin icrası zamanı spesifik, özünəməxsus alban inanclar sisteminə uygun elementləri müəyyən edilmişdir.
11. Əhalinin siyahıyaalma sənədləri ilə baglı statistik mənbələrdən müxtəlif səciyyəli etnik məlumatlar, sosial demoqrafik nəticələr əldə edilmişdir. Siyahıyaalma sənədlərinin təhlili bütövlükdə udi etnosunun inkişafının bir sıra fərqli tərəflərini, ümumi etnik mənzərəni- etnik proseslərin dinamikasını, həmçinin assimilyasiya və etnomiqrasiya proseslərini müşahidə etməyə, etnik miqrasiya məsələlərinə münasibət, etnoslararası əlaqələrlə baglı etnososioloji məlumatlar əldə etməyə imkan vermişdir. Aparılan elmi tədqiqatların nəticələri bu gün Azərbaycanda yaşayan udilərin dünyanın müxtəlif yerlərində (Rusiya, Gürcüstan və s.) yaşayan udilərdən fərqli olaraq öz etniik kimliyini itirmədiyini, heç bir assimilyasiya proseslərinə məruz qalmadığını, hazırda Rusiya, Gürcüstan kimi ölkələrdə yaşayan udilərin böyük bir qisminin assimilyasiya proseslərinə ugrayaraq bir çox hallarda ermənilışməyə, gürcüləşməyə məruz qaldığı halda Nic udilərinin Azərbaycandakı tolerantlıq və multikultural mühit nəticəsində öz qədim mənşəyini, inanclarını və dilini saxlamaqla yanaşı, hətta dini və etnik baxımdan yeni inkişaf mərhələsinə qədəm qoyduğunu müəyyənləşdirməyə imkan vermişdir.
12. Tarixi köklərini Yerusəlimdən (Qüds) alan Alban Apostol kilsə tarixinin qədim ənənələrinin və onun qədim Şərq kilsələri ilə əlaqələrinin üzə çıxarılması istiqamətində beynəlxalq səviyyədə işlər aparılmış, layihə çərçivəsində ezam olunduğumuz xarici ölkələrdə albanların dini-mədəni irsinin araşdırılması aspektində apardığımız araşdırmalar nəticəsində Albaniyada xristianlığın ilkin mərhələsi olan həvvari –sirofil dövrü ilə baglı ilə baglı yeni mənbələr üzə çıxarılmışdır.

13. Türkiyənin Mardin şəhərində yerləşən **Deyrulzafaran** monastırındakı qədim kitabxanada erkən orta əsrlərdə Qədim Şərq kilsələrinin fəaliyyəti, onların Qafqaz Albaniyası, Alban Apostol kilsəsi ilə əlaqələri, Alban Apostol Kilsəsinin tarixi və kilsə qanunlarına dair materillar əldə etmək üçün bəzi qədim süryani qaynaqları gözdən keçirilmiş və IX-X əsrə aid "Kilsə qanunnanməsi" adlı qədim süryani qaynagında Albaniya kilsə tarixi ilə baglı bir sıra yeni məlumatlar əldə edilmişdir. Yerli süryani mütəxəssilərin köməyilə bu qədim mənbədən 325-ci ildə ilk kilsə qanunlarının əsaslarının müəyyən edildiyi, xristianlıq tarixinin ilk toplantısı olan məşhur Nikey məclisinə (türk-süryani qaynaqlarında İznik konseyi adlanır) qatılan 318 yepiskopdan birinin Alban Apostol kilsəsinin Zuilos adlı Qəbələ yepiskopu olması kimi yeni məlumat əldə edilmişdir.
14. Türkiyənin Mardin şəhərindəki arxiv və kitabxanalarda apardığımız araşdırmalar nəticəsində V əsr tarixini təsvir edən suriya xronikaçısı və Süryani kilsəsinə mənsub olan Zaxariya Mitilenlinin 12 cildlik "Suriya xronikası "əsərinin 5-6-əsrləri əhatə edən X cildinin 1899-cu ildə ingilis dilinə tərcümə edilmiş variantı əldə edilmiş, yunanca yazan müəllifin əsərinin süryani dilinə tərcümə edilmiş kilsə tarixinə həsr olunan 431-491-ci illəri əhatə edən iki cildinin təhlili ilə baglı yerli süryani mütəxəssiləri ilə elmi mübadiləyə başlanmışdır.
15. Kitabxana çalışmalarında həmçinin Azərbaycanın Albaniya dövrü tarixində xüsusi yeri olan missionerlik fəaliiyətlərini bir sıra xalqlar, o cümlədən albanlar arasında da təblig edərək yaymış Suriya missionerlərinin Azərbaycandakı missionerlik fəaliyyəti ilə baglı məlumatlar da əldə edilmişdir. Azərbaycanda Cərçiş peygəmbər adı ilə müqəddəsləşdirilən süryani missioneri Mor Cerçisin (Aziz Georgius, müqəddəs Georgi) missionerlik fəaliyyəti ilə baglı məlumatlar əldə edilmiş, Qafqaz Albaniyasında xristianlığın yayıldığı dövrlərdən bəri mövcud olan və hazırda da azərbaycanlılar tərəfindən ziyarət edilərək *Carçis Peygəmbər ziyarətgahı* adı verilən bu qədim ibadətgah ilə bir çox süryani kilsələrinə də adını verilmiş Mor Cerçis (Müqəddəs Çərçiş) ibadətgahlarının tarixi əlaqələri üzə çıxarılmışdır.
16. Udilərin etnomədəni dini irsinin tədqiqi sahəsində xarici mütəxəssislərlə, o cümlədən Bion Veggi (Norveç), Gabriyel Akyüz (Türkiyə), Saliba Özmen (Türkiyə) kimi qədim Şərq xristianlığı və qədim süryani dili üzrə mütəxəssislərlə elmi əlaqələr yaradılmışdır. Oslo Universitetinin professoru, Norveçin Yazıçılar Birliyinin üzvü Bion Veggi- ortodoks kilsələrinin tarixi ənənələri və Alban Apostol kilsəsinin qədim Şərq kilsələri arasında yeri mövzusu ilə əlaqədar elmi diskusiyalar və müzakirələr təşkil edilmişdir.
17. Türkiyə Diyarbakır və Mardin metropoliti Saliba Özmen Qədim Şərq ortodoks kilsələrinin Alban Apostol kilsəsi ilə tarixi əlaqələri, o cümlədən Alban Apostol kilsəsinin tarixi, keçmiş ənənələri, kilsə qanunları, mərasim və ayinlərinin öyrənilməsi və bərpası məsələlərinin müzakirələri təşkil edilmişdir.
18. Horiepiskopos Gabrieyel Akyüz, qədim suriya (süryani) mənbələri üzrə mütəxəssis – Mardin bölgəsindəki qədim Şərq kilsələrinin tarixi, suryani dilindəki kilsə tarixi ilə baglı mənbələrin araşdırılması, xüsusilə də, Albaniyada xristinalığı ilk yayan apostollar- Varfolomey, Faddeyin şagirdi Yeliseyle baglı, həmçinin Alban Apostol kilsəsinin yepiskopları barədə Qədim Şərqin kilsə və monastrlarda qorunub qalmış mənbələrdəki məlumatların əldə edilməsi və süryanicədən tərcümə edilməsi ilə baglı elmi əlaqələr qurulmuşdur.

19. Azərbaycanda tolerantlığın nümunəvi modeli kimi udilərin dini və etnomədəni irsi, etnosiyasi aspektlərinin təhlil edilərək mühüm elmi nəticələr əldə edilməsi davam etdirilmişdir. Cari rübdə udilərin miqrasiyasına səbəb olan siyasi və tarixi faktorlar üzə çıxarılmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycandakı etnosiyasi vəziyyətin təhlili, Azərbaycanın Qəbələ rayonu Nic kəndində kompkt şəkildə məskun olan udi etnosunun tarixi, qədim dövrlərdən bəri udilərin etnik tarixinin mərhələləri və miqrasiya prosesləri, Azərbaycanın polietnik cəmiyyətində udi etnosunun yeri və rolu, udilərin məişəti, həmçinin Azərbaycanda etnomədəni müxtəlifliyin aspektləri, tarixi kökləri, üzə çıxarılmışdır.
20. Azərbaycan xalqının etnogenezində mühüm rol oynamış alban tayfa ittifaqı və bu ittifaqa daxil olan udi tayfalarının çoxəsrlik dini, etno-mədəni həyatı ilk dəfə olaraq qarşılıqlı müqayisələrlə tədqiqata cəlb edilməklə bütövlükdə xalqımızın təşəkkül prosesinin mühüm dövrü izlənmiş, bütövlükdə azərbaycanlıların, o cümlədən Azərbaycanda məskun olan xınalıq, qrız, buduq, ingiloy, ləzgi, saxur kimi alban tayfalarının birbaşa varisləri olan bir sıra etnoslar ümumalban, ümumazərbaycan ənənələri üzə çıxarılmışdır.
21. Udilərin dini və etnomədəni ənənənlərinin tədqiqi nəticəsində həm Azərbaycanda, həm də bütövlükdə Qafqazda qədim və orta əsrlərdə gedən etno-mədəni və dini-ideoloji proseslər, Azərbaycan din tarixinin mühüm mərhələlərindən biri olan xristianlıq dövrü, Qafqaz Albaniyasında xristianlığın yayılması və xristianlıq ənənələrinin formalaşması və movcudluğu mərhələləri, o cümlədən mədəni irsdəki varislik prosesləri izlənmişdir.
22. Layihə mövzusu ilə bağlı əldə edilmiş bir sıra yeni fond və arxiv, eləcə də folklor materialları- XIX əsr müəlliflərinin əsərləri və XIX–XX əsrin əvvəllərinə aid dövri nəşrlər, həmçinin XIX-–XX əsrlərdən dövrümüzədək nəşr olunan müxtəlif səciyyəli məcmuələr, təqvimlər, icmallar, Alban tayfa İttifaqı və bu ittifaqa daxil olan udi tayfaları haqqında antik və orta əsr müəlliflərinin əsərlərinin məcmusu əsasında ötən əsrin ortalarınadək dini və etnik kimliyi dolaşıqlığa salınan və Azərbaycan alban tayfalarının birbaşa varislərindən olan udilərin etnik tarixi və etnik ənənələri, dini və etno mədəni irsi, son albanlar olaraq yalnız udilərin öz alban kimliklərini və alban xristian ənənələrini günümüzədək müəyyən dərəcədə qoruyub saxlamasının əsas səbəbləri tədqiq edilərək üzə çıxarılmışdır.
23. Qəbələ bölgəsinnin arxeoloji-etnoqrafik tədqiqi zamanı bölgənin memarlıq və qəbir abidələrinin, həmçinin xalq inanclarının qarşılaşdırılması yolu ilə Yaloylutəpə arxeoloji mədəniyyətinə aid edilən bir sıra mərasim ayinlərinin hazırda da bölgənin qədim sitayiş yerlərində alban ənənələrinin xalq yaddaşında qalan arxaik ənənələrin izlərinin təsbit edilməsi nəticəsində alban mədəniyyəti və etnosunun zəngin və qədim ənənələrinin izləri üzə çıxarışdır.
24. Qafqaz Albaniyasının mərkəzi vilayətinin yerləşdiyi Qəbələnin bölgəsinin və alban tayfalarının birbaşa varislərindən olan xınalıq, qrız və buduqlrın məskun olduğu Quba bölgəsinin qədim qəbir abidələrinin qarşılaşdırılması nəticəsində Alban mədəniyyəti üçün səciyyəvi olan astral inamlar və təbiət qüvvələri ilə bağlı müəyyən dünyagörüş və simvolik işarə motivlərinin xüsusilə Günəş kultunun izlərini daşıyan oymalı naxışları əks etdirən bir çox maraqlı bədii tərtibatlı məzar daşlarının eyniliyi təsbit edilmiş, qədim

qəbirstanlıqlarda orta əsrlərə aid qəbir daşlarındakı nəbati və zoomorf qabartma təsvirlərin Albaniya həkkaklıq və heykəltəraşlıq nümunələri üçün xarakterik olan umumalban ənənələrinə uygun olduğu müəyyən edilmişdir. Xüsusilə həm Qəbələnin Həzrə, həm də Qubanın Xınalıq, Buduq, Qrız kimi kəndlərindəki qədim qəbiristanlardakı at və atın başı üstündə günəş təsvirli müxtəlif qəbir daşları at kultu ilə bagli ümumazərbaycan umumalban ənənələrini əks etdirməkdə olduğu təsbit edilmişdir. Qəbələ bölgəsi ilə baglı arxeoloji tədqiqatların araşdırlması nəticəsində Yaloylutəpə arxeoloji mədəniyyətinə aid bəzi qəbirlərdən at sümükləri və at yüyəni tapılmasılə bu qədim mərasim ayininin tarixi köklərinin ibtidai icma dövrləinədək uzandığı müəyyən edilmişdir.

25. Erkən orta əsr alban vilayətlərinin tarixi aqibəti, Bizans-Sasani -Ərəb yürüşlri dövründəki tarixi hadisələr, erkən orta əsrlərdə alban tayfalarının və alban mahallarının tarixinin, bununla da qədim alban tayfalarının etnogenetik köklərinin daha fərqli aspektdə araşdırılması üçün Azərbaycanın şimal-şərq və şimal-qərb bölgələrinin orta əsrlərə aid bəzi maddi və mənəvi mədəniyyət nümunələrinin, toponimikasının, həmçinin xalq inanclarının qarşılıqlı müqayisələrlə təhlilinə yer verilməklə alban tayfalarının, xüsusilə, orta əsr qaynaqlarında adı çəkilən Hereti, Bed, Xeni alban vilayətlərinin tarixi, bu alban mahallarının əhalisinin Sasani, Bizans, Ərəb xilafəti, həmçinin xəzərlərin yürüşlərindən qorunmaq üçün Albaniyanın şimal-qərb bölgələrindən şimal-şərqdə, yüksək daglıq ərazilərdə əlçatmaq yerlərdə məskunlaşmış olduğu tutarlı elmi dəlillərlə müəyyən edilmiş, bu etnosların tarixi ilə baglı yeni elmi nəticələr əldə edilmişdir.
26. Alban tayfalarının birbaşa varislərindən olan xınaıqların, buduqların, qrızların, həmçinin hapıtların məişət ənənələrinin udilərlə eynilik təşkil etməsi, bu alban tayfalarının inanclar sistemində həm xristianlığa qədərki, həm də islamaqədərki alban inanclarının izlərini daşıyan arxaik elementlərin də qorunub qalması müəyyən edilmiş, bu etnosların ümumalban köklərini üzə çıxarmışdır.
27. Qəbələ bölgəsində Şeşpər baba, Komrat, Qala piri, Sarılıq piri, Toyuqqıran piri, Şəki-Zaqatala bölgəsində Kiş, Kürmük, Pəriqala kimi qədim inanc yerlərində apardığımız etnoqrafik tədqiqatlar nəticəsində ümumalban ənənələri üzə çıxarılmış, **b**u inanc yerlərində alban tayfalarının qədim inanclarının, astral təsəvvürlərinin islam ideologiyasının təsiri ilə daha da təkmilləşərək tədricən islami dəyər qazandığı, dini sinkretizmə gətirib çıxardığı təsbit edilmişdir. Həmçinin bölgələrdə yerli əhalinin məişətində qorunub qalmış bir sıra adət-ənənlərdə və xalq inamlarında, eyni zamanda qədim başdaşlarıının üzərindəki təsvirlərdə müxtəlif dini dünyagörüşlərin, xristianlığa və islamaqədər inancların izləri müəyyən edilmişdir.
28. Qəbələ bölgəsinin arxeoloji-etnoqrafik tədqiqi zamanı təsbit edilmiş qəbir daşlarının islam dövrünə aid olmasına baxmayaraq bu başdaşlarında qədim alban inanclarının elementlərinin öz əksini tapması, bu elementlərin xalqın məişətində, hətta dəfn adətlərində yaşamaqda olduğu müəyyən edilmişdir. Bu qəbirüstü abidələrindəki daşların üzərindəki təsvirlərin dekorativ tərtibatının təhlili nəticəsində bölgədə islam dininin yayılmasından sonra belə daş stelalarda islam ənənələri ilə yanaşı bədii Alban incəsənətinə və inanclarına aid olan bir sıra elementlərin qorunub saxlandığı, Qafqaz Albaniyasının süqutundan sonra, islamın bütün Azərbaycanda bərqərar olduğu dövrlərdə də bölgədə Qafqaz Albaniyası sənətkarlığına xas olan daş üzərində bədii oyma üsulunun tətbiqinin davam etdirildiyi təsbit olunmuşdur. Xüsusilə də belə abidələrdə qədim alban bəzək motivlərindən - dolama və buruq şəkilli xətlərdən istifadə bu daşları

Qafqaz Albaniyası abidələri və incəsənət nümunələri ilə əlaqələndirməyə imkan vermişdir.

29. Albaniyaya xristianlığın yaranmasının ilk mərhələsində Varfolomey, Faddey (Addey) , Marr və Yelisey kimi Qüdsdən gələn həvvarilər və onların tələbələrinin Qüdsdən Qafqaz Albaniyasına uzanan yol xəritəsi, xüsusilə də Müqəddəs Yeliseyin Qüdsdən Kişə qədər davam edən və Zərquni vadisində bitən dini fəaliyyəti, onun udi xristian ənənələrindəki özünəməxsus yeri müəyyən edilmişdir.

30. Qafqaz Albaniyasında xristianlığın sirofil (süryani) dövrü adlanan ilkin mərhələsi ilə baglı yeni elmi faktlar üzə çıxarılmışdır. Eranın I əsrində xristianlığı qəbul etmiş xristian nazareylər (ilk xristianlar) adlanan Qafqaz yəhudilərinin, burada məskunlaşmış yəhudi icmaları ilk xristianlığı qəbul edənlərdən olduqları və aramey dilində danışdıqları, bu baxımdan da Cənubi Qafqaz ərazilərində xristianlıq suriya –aramey dili vasitəsilə daha rahat qəbul edilərək yayılmaqda olduğu üçün Albaniyada da xristianlığın ilkin mərhələsində kilsə dili Suriya dili olmuşdu. Bu baxımdan Şərq xristianlığının ən qədim ənənələrinin ilkinliyini günümüzədək quruyub saxlamış, qədim kilsə dilləri olan süryani dilini bu gün kilsə ibadətlərində istifadə edən, hazırda Türkiyənin Mardin, Diyarbəkir, Urfa, Antakya kimi bölgələrində məskun olan süryanilərin (assuriyalılar) kilsə kitabxanalarında qorunub qalmış qədim mənbələrinin araşdırılması yolunda mühüm elmi-praktiki addımlar atılmışdır. Mövcud ortodoksal kilsə ənənələri əsasında, dini ideologiyanın tarixi-etnoqrafik təhlili üçün kilsə tarixi, qanunları və təlimləri ilə baglı araşdırmalar edilmiş, xüsusilə də Albaniyada xristianlığın yaranmasının ilkin mərhələsi olan həvari (sirofil) dövrü qədim Şərq mənbələri olan süryani qaynaqları əsasında ararşdırılmış, Qədim Şərqin ortodoks kilsələri ilə müqayisələr aparılmış, eyni zamanda hazırda Türkiyənin Mardin bölgəsində yerləşən süryani kilsələri ilə Alban Apostol kilsəsinin vahid kökdən Yerusəlimdən gələn qədim umumi ənənələrinin üzə çıxarılması istiqamətində yeni elmi nəticələr əldə edilmişdir.

31. Mardin Universitetinin "Süryani dili və ədəbiyyatı" fakültəsinin əməkdaşları ilə elmi əlaqələrin qurulması nəticəsində erkən orta əsrlərdə Qədim Şərq kilsələrinin fəaliyyəti, onların Qafqaz Albaniyası, Alban Apostol kilsəsi ilə əlaqələri, qədim Şərq monastır və kilsələrinin Alban Apostol kilsəsi ilə, həmçinin Azərbaycanın erkən orta əsrlər dini tarixi əlaqələri, Alban Apostol Kilsəsinin tarixi və kilsə qanunlarına dair materillar, həmçinin dini və məişət ənənələri öyrənilərək üzə çıxarılmışdır. Şərq kilsə tarixini tədqiq edən bir sıra alimlərlə qurulmuş elmi əlaqələr nəticəsində tarixi köklərini Yerusəlimdən alan Alban Apostol kilsə tarixinin qədim ənənələri və onun qədim Şərq kilsələri ilə əlaqələri təhlil edilmiş, qədim Şərq xristianlığı ilə baglı süryani kilsələrində qorunub saxlanmış qiymətli fond və arxiv materialları, xüsusilə də, Qafqaz Albaniyasında xristianlığı yayan həvvarilərin tarixinə dair yeni materiallar əldə edilmişdir. Qafqaz Albaniyası ərazisində ciddi təqiblərə məruz qalan ilk xristian missionerləri, apostolların Qafqaz Albaniyasındakı fəaliyyəti, xüsusilə də Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Yeliseyin və onun tələbələrinin öldürüldüyü ərazilər ilk dəfə olaraq mənbələr, arxiv materiallları və etnoqrafik çöl materiallarının qarşılaşdırılması əsasında müəyyən edilmişdir. Araşdırmalar nəticəsində Yeliseyin Yerusəlimdən Albaniyaya qədər uzanan yol xəritəsində adı çəkilən bütün toponimlər, xüsusilə də elmi ədəbiyyatda indiyədək naməlum qalan onun öldürüldüyü ərazi - mənbələrdə adı çəkilən Zərquni, Qomenk (Homenk) toponimlərinin lokalizasiyası, etnoqrafik ekspedisiyalarımız, həmçinin mövcud mənbələr və arxeoloji materialların

qarşılaşdırılması yolu ilə müəyyən edilmişdir.

32. Alban xristian ənənəsində, ümumiyyətlə, xristian dünyasında yalnız Albaniyada müqəddəs kimi qəbul edilən Müqəddəs Faddeyin tələbəsi olmuş və həvvari Yakov tərəfindən Albaniyaya göndərilmiş Yeliseyin Yerusəlimdən Məskutlar ölkəsinə, Çolaya, oradan da Uti vilayətinə, ən sonda Kiş bölgəsində alban kilsəsinin əsasını qoymaqla tamamlanan xristianlığı təbliğ etməsi dönəmində dini fəaliyyətini icra etdiyi marşrutla yanaşı udilər arasında müqəddəsləşdirilməsinin səbəbləri müəyyən edilmiş, yerli əhali arasında, xüsusilə də Yeliseyin öldürüldüyü Zərquni vadisinin əhatə etdiyi tarixi ərazilər ilk dəfə olaraq yazılı qaynaqlar, arxeoloji-etnoqrafik materialların qarşılaşdırılması yolu ilə müəəyən edilmiş, eyni zamanda həmin ərazilərdə Yeliseylə baglı xalq arasında yaygın olan əfsanələr toplanmış, inanc yerləri qeydə alınmışdır. Hazırda Şəki rayonunun Kiş kəndində Kiş məbədinin, Oguzda müqəddəs Yelisey məbədinin, Qəbələnin Nic kəndində Çotari kilsəsinin, eyni zamanda Dizaqlı kəndi yaxınlığında Komrad dagında mövcud olmuş V əsrə aid alban kilsəsinin udilər arasında Yeliseylə baglı olması və bu alban kilsələrinin müqəddəs Yeliseyin şərəfinə adlandırılmasıınn səbəbləri və tarixi kökləri, bu qədim alban məbədlərinin hər birinə inancından asılı olmayaraq bütün azərbaycanlıların pir kimi ziyarət etməsindəki alban ənənələrinin izləri üzə çıxarılmışdır.

33. Alban kilsəsinin ibadət dili ilk öncə süryani dili olduğu üçün süryani kilsəsinin ibadət ənənələrinin öyrənilməsi Alban Apostol kilsəsinin dirçəldilməsində və ibadət ənənələrinin bərpa edilməsində mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq Alban Apostol kilsəsinin tarixi ənənələrinin bərpa edilməsi və tarixi köklərinin araşdırılması işində Şərq xristian teologiyasına baglı olan Süryani Ortodoks kilsəsi ilə qarşılıqlı əlaqələrin genişlənməsi və dioloqun güclənməsi davam etdirilmiş, keçmişdən bu günədək udilərin etnik və dini durumu, Qafqaz Albaniyası Apostol kilsəsinin tarixi ənənələri, Qafqaz Albaniyası Apostol Kilsəsinin tarixi ənənələrinin bərpası məsələləri və yolları ilə baglı Norvec, Türkiyə, ABŞ alimlərinin iştirakı ilə təşkil edilmiş beynəlxalq səviyyəli elmi seminar və konfranslarda aparılan müzakirələr nəticəsində Alban Apostol Avtokefal kilsəsinin tarixi ənənələrinin bərpası istiqamətində yeni elmi-nəzəri konsepsiya işlənib hazırlanmışdır.

34. XIX əsrdən etibarən Dağlıq Qarabağda və Ermənistanda ciddi assimilyasiya proseslərinə məruz qalan və XX əsr boyu Gürcüstan, Rusiaya, Ukraynaya miqrasiyası davam edən udilərin bu ölkələrdə tamamilə assimilyasi olunduğu və Azərbaycandan kənarda yaşayan udilərin Azərbaycan udilərindən fərqli olaraq assimlyasiya proseslərinin sürətlə getməsinin, bunun əksinə olaraq hazırda Azərbaycanda Qəbələnin Nic kəndində kompakt yaşayan udilərin etnik ənənələrinin, dilinin, dininin, mədəniyyətinin qorunub qalmasının səbəbləri üzə çıxarılmışdır. Nic qəsəbəsində yaşayan udilərlələ Rusiya və Ukrayna, Belorusiya, Gürcüstanda yaşayan (Kvareli bölgəsinin Zinobiani kəndində) udilərin müqayisəli qarşılaşdırılması nəticəsində miqrasiya etmiş udilərinin Azərbaycan udiləri ilə ümumi və fərqli xüsusiyyətləri müəyyən edilmişdir. Bu gün Rusiya, Gürcüstan kimi ölkələrdə yaşayan udilərin böyük bir qismi assimilyasiya proseslərinə ugrayaraq bir çox hallarda ermənilışməyə, gürcüləşməyə məruz qaldığı halda Nic udilərinin Azərbaycandakı tolerantlıq və multikultural mühit nəticəsində istər dini, istərsə də etnik baxımdan yeni inkişaf mərhələsinə qədəm qoyması, Rusiya və Ukrayna, Belorusiya, Gürcüstanda yaşayan udilər arasında assimilyasiya proseslərinin daha sürətlə getməsinin bu ölkələrdəki udi ailələrində daha perspektivli və

daha yaygın olan müvafiq rus,gürcü dillərində danışmağa üstünlük verilməsi, evlilik və din faktoru kimi bir sıra assimliyasiya səbəbləri müəyyən edilmişdir. Aparılan müqayisəli xarakterli elmi araşdırmalar bu gün Azərbaycanda yaşayan udilərin dünyanın müxtəlif yerlərində Rusiya, Gürcüstan və s. kimi bölgələrdə eyni dindən olan, yəni xristian əhali ilə birgə yaşayan udilərdən fərqli olaraq öz etniik kimliyini itirmədiyi, heç bir assimilyasiya proseslərinə məruz qalmadığını və bunun Azərbaycanın multikultural və tolerant mühiti ilə əlaqədar olduğu təsbit edilmişdir.

35. Azərbaycanın şimal-qərb bölgələri ilə yanaşı XIX əsrədək udilərin yayılma arealları, xüsusilə də Musa Kalankatlının "Alban tarixi" əsərində uti mahalları olaraq adı çəkilən toponimlərin lokolizasiyasını müəyyənləşdirmək üçün tarixi Uti viləyətinin ərazisinə daxil olan Qazax-Akstafa bölgəsinin də etnoqrafik tədqiqatlara cəlb edilməsi nəticəsində udilərin yayılma arealları, məskunlaşma tarixi, xüsusilə də Qazax-Akstafa bölgəsindəki Kirzan kəndində məskunlaşma tarixi, XIX əsrdə Qarabağ bölgəsindən udilərin Nuxa qəzasına kütləvi axınları, XIX əsrin sonu- XX əsrin əvvəllərində udilərin dini və etnik vəziyyəti ilə bağlı yeni tarixi faktlar əldə edilmişdir.

36. Layihənin mövzusuna uygun olaraq aparılan elmi araşdırmaların nəticələrinin öz əksini tapdığı monoqarfiyanın ilkin planı və mətnin ilkin variantı, həmçinin etnoqrfafik səfərlər zamanı əldə edilmiş fotoloarın elektron kataloqu hazırlanmışdır. Monoqarfiyada alban tayfalarının birbaşa varislərindən olan udilərin etnik tarixi, etnosun XIX əsrədək yayılma arealı, dini və etnik durumu, və XIX -XX əsrlər boyu miqrasiya proseslərinin, həmçinin müasir dövrdə udilərin dini və etnik ənənələri, mərasim ayinləri, Nic kəndindəki multikulturalizm və tolerantlıq mühitinin öz əksini tapması nəzərdə tutulmuşdur.

| | |
|---|---|
| 2 | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(burada doldurmalı)* |

1. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| 1 | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(burada doldurmalı)* |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

___________________
*(imza)*
“ __” _________ 2019_-cu il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Paşayeva Məhəbbət Tofiq qızı**

__________________
*(imza)*
“ __” _________ 2019-cu il

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ELMİN İNKİŞAFI FONDU**

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi**
**çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat**
**proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsinin tarixi-etnoqrafik tədqiqi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Paşayeva Məhəbbət Tofiq qızı**
Qrantın məbləği: **70 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/54/5-M-30**
Müqavilənin imzalanma tarixi: **29 mart 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 aprel 2017-ci il – 01 aprel 2019-cu il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar<br><br>həmçinin, xaricdə çap olunmuş | | | 1. M.Paşayeva, R.Mobili **Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsi. (tarixi-etnoqrafik tədqiqat)** *(Monoqrafiya capa hazırdır və elektron forması EİF-ə təqdim edilmişdir)* |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| 2. | Məqalələr<br><br>həmçinin xarici nəşrlərdə | 2. Paşayeva Məhəbbət - “Доисламские религии в Азербайджане” Материалы v международной научно-практической конференции «Религия и история» Минск «Ковчег» 2018. s.17-24<br>3. Ü.Hacıyeva, M.Paşayeva, R.Mobili (müştərək) - «Удины – неотъемлемая часть паствы Албанской (Кавказской) Апостольской Автокефальной Церкви» Материалы v международной научно-практической конференции «Религия и история» Минск «Ковчег» 2018 s.59-65<br>4. Robert Mobili. «Албанская (Кавказская) Апостольская церковь: История и современность». Материалы v международной научно-практической конференции «религия и история» Минск «Ковчег» 2018 S.65-69<br>5. Ü.Hacıyeva «Энический состав паствы Албанской Апостолской церкви» | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 7. Ü.Hacıyeva «Энический состав паствы Албанской Апостолской церкви» Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar" elmi sessiyanın materialları. Bakı, 2018 07 fevral c.107-109<br><br>8. Ü.Hacıyeva Миссионерская деятельность святого Елисея Dövlət və Din " jurnalı N1 2018 s.110-119.<br><br>9. Ü.Hacıyeva Некоторые данные о геополитических и конфессиональных изменениях в юго-восточной части Южного Кавказа в XVII-XIX веках. Arxeologiya və Etnoqrafiya jurnalı 2018 N1 | | |
| 3. | Konfrans materiallarında məqalələr<br><br>O cümlədən, beynəlxalq konfras materiallarında | 10. Məhəbbət Paşayeva. Qəbələ bölgəsində qədim alban ənənələrinin izləri. Qəbələ arxeologiyası. Beynəlxalq Elmi Seminar. Bakı, CBS, 21-23 oktyabr, 2017 | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 11. M. Paşayeva “Azərbaycanda tolerantlıq və multikulturalizm dəyərlərinin yaşayan nümunəsi-udilər”. Azərbaycanda arxeoloji və etnoqrafik araşdırmalar” elmi sessiyanın materialları. Bakı, 2018 07 fevral . s. 92-93 | | |
| 4. | Məruzələrin tezisləri<br><br>həmçinin, beynəlxalq tədbirlərin toplusunda | 12. Məhəbbət Paşayeva. 1836-cı ildə Alban kilsəsinin ləgvindən sonra udilərin dini və etnik durumu. Arif Abbasovun 80 illiyinə həsr olunmuş Elmi sessiya. Bakı, 27 dekabr 2017 | | |
| | | tezis | | |

| 5. | Digər (icmal, atlas, kataloq və s.) | 12 M.Paşayeva, R.Mobili Azərbaycanın multikultural mühitində tolerantlığın modeli kimi udilərin dini-mədəni irsi. Fotoalbom. *(elektron forması EİF-ə təqdim edilmişdir).* | | |
|---|---|---|---|---|

**2. İxtira və patentlər (sayı)**

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

**3. Elmi tədbirlərdə məruzələr (sayı)**

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| 1. | Məhəbbət Paşayeva və Robert Mobili "Udilər keçmişdə və bu gün" "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda Beynəlxalq Elmi Konfrans 23-24 may 2018 | Beynəlxalq konfrans | Dəvətli | 1 |
| 2 | Paşayeva Məhəbbət -"Доисламские религии в Азербайджане" «Религия и история» Минск Beynəlxalq konfrans aprel 2018 | Beynəlxalq konfrans | Dəvətli | 1 |
| 3 | Robert Mobili. «Албанская (Кавказская) Апостольская церковь: История и современность«Религия и история» Минск Beynəlxalq konfrans aprel 2018 | Beynəlxalq konfrans | Dəvətli | 1 |
| 4 | Məhəbbət Paşayeva "İlk xristian missionerlərinin Albaniyada fəaliyyəti" BBMM "Qafqazın kilsələri" mövzusunda dəyirmi masa 13 iyun 2018 | Beynəlxalq | Dəvətli | 1 |
| 5. | Ülviyyə Hacıyeva "Святые реликвии и культы Албанской Апостольской церкви" BBBMM "Qafqazın kilsələri" mövzusunda dəyirmi masa 13 iyun 2018 | Beynəlxalq | Dəvətli | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 6 | Robert Mobili “Alban Apostol kilsəsi: Tarix və Müasirlik” BBMM “Qafqazın kilsələri” mövzusunda dəyirmi masada 13 iyun 2018 | Beynəlxalq | Dəvətli | 1 |
| 7 | Məhəbbət Paşayeva “Cümhuriyyət parlamentində multikulturalizm mövzusunda Qəbələ Heydər Əliyev Mərkəzində “Cümhuriyyət dövründə multikulturalizm və dini etiqad azadlığına həsr olunmuş dəyirmi masada çıxş 21 iyun 2018 | Ölkədaxili | Dəvətli | 1 |
| 8 | Robert Mobili Cümhuriyyət hökumətində din və dini etiqad azadlığı” mövzusunda Qəbələ Heydər Əliyev Mərkəzində “Cümhuriyyət dövründə multikulturalizm və dini etiqad azadlığına həsr olunmuş dəyirmi masada çıxış 21 iyun 2018 | Ölkədaxili | Dəvətli | 1 |
| 9 | Robert Mobili 04 iyul 2018-ci il “Azərbaycanın multikultural modeli” mövzusunda Azərbaycan tarix muzeyində seminar 04 iyul 2018-ci il | Ölkədaxili | Dəvətli | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 10 | Robert Mobili Almaniyanın Aysburq şəhərində “Azərbaycan multikulturalizmi” nə həsr olunmuş dəyirmi masada “Udilər və Azərbaycan multikulturalizmi” mövzusunda çıxış 02-04 may 2018 | Beynəlxalq | Dəvətli | 1 |
| 11 | 1. Robert Mobili Azərbaycan dini liderlərinin ABŞ-da Los Anjeles, San Fransisko, Kaliforniyada təşkil edilmiş dəyitmi masada iştirak 13-20 may, 2018-ci il. | Beynəlxalq | Dəvətli | 1 |
| 12 | Məhəbbət Paşayeva “İlk xristian missionerlərinin Albaniyada fəaliyyəti”, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Qafqazın kilsələri” mövzusunda “dəyirmi masa” | Beynəlxalq | Dəvətli | 1 |
| 13 | Robert Mobili “Alban Apostol kilsəsi: Tarix və Müasirlik” Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Qafqazın kilsələri” mövzusunda “dəyirmi masa” | Beynəlxalq | Dəvətli | 1 |
| 14 | Ülviyyə Hacıyeva “Святые реликвии и культы Албанской Апостольской церкви Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində “Qafqazın kilsələri” mövzusunda “dəyirmi masa” | Beynəlxalq | Dəvətli | 1 |
| 15 | Məhəbbət Paşayeva“Azərbaycanda alban tayfalarının etnik ənənələri” “Qafqaz Albaniyası Azərbaycanın mədəni-tarixi irsi kimi” mövzusunda elmi-praktik konfrans. Qəbələ,Nic. **2018-11-13** | Ölkədaxili | Dəvətli | 1 |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| 16 | Ülviyyə Hacıyeva“VIII-XIX əsr Alban etno-mədəni irsi yerli mənbələrdə. Qafqaz Albaniyası Azərbaycanın mədəni-tarixi irsi kimi” mövzusunda elmi-praktik konfrans. Qəbələ,Nic. **2018-11-13** | Ölkədaxili | Dəvətli | 1 |
| 17 | Məhəbbət Paşayeva Milli Azərbaycan Tarixi Muzeyində “Tariximizi öyrənək və öyrədək” Gənclər Klubu və “Gənc Muzeyşünaslar və Muzeysevərlər” Klubunun üzvlərinə “Qafqaz Albaniyasının əhalisi” mövzusunda | Ölkədaxili | Dəvətli | 1 |
| 18 | Məhəbbət Paşayeva. Qəbələ bölgəsində qədim alban ənənələrinin izləri. Qəbələ arxeologiyası. Beynəlxalq Elmi Seminar. Bakı, CBS, 21-23 oktyabr, 2017 | Beynəlxalq | Dəvətli | 1 |

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Baş məsləhətçi**
**Quliyeva Mülayim Sahib qızı**

__________________
*(imza)*
“ __” ________ 2019-cu il

**İCRAÇI:**

**Layihə rəhbəri**
**Paşayeva Məhəbbət Tofiq qızı**

__________________
*(imza)*
“ __” ________ 2019-cu il